## 2018-Cİ İL AZƏRBAYCAN ÜÇÜN UĞURLU İL OLUB, ÖLKƏMİZ BÜTÜN İSTİQAMƏTLƏR ÜZRƏ SÜRƏTLƏ İNKİŞAF EDİB

Hər yeni ilin əvvəlində, adətən, keçilmiş yola nəzər salınır, nəticələr təhlil edilir və perspektiv hədəflər müəyyənləşdirilir. Bəs artıq tarixə qovuşan 2018-ci il müstəqil Azərbaycan üçün necə keçdi, ölkəmiz hansı uğurlara imza atdı? Sualın cavabında hər şeydən əvvəl onu vurğulamaq yerinə düşər ki, ölkəmizdə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin yüksək səviyyədə qeyd edildiyi 2018-ci ildə də daxili sabitlik təmin olundu...



Bax səh. 4

## DÖVLƏT TƏHLÜKƏSİZLİYİ XİDMƏTİNİN HƏRBİ HİSSƏSİNDƏ DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİK GÜNÜ VƏ YENİ İL BAYRAMI MÜNASİBƏTİLƏ TƏDBİR KEÇİRİLİB

Dekabrın 31-də Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) N saylı hərbi hissəsində Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə tədbir keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Birinci-vitse prezidenti Mehriban Əliyeva...



Bax səh. 2



Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır

# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 04 yanvar 2019-cu il, cümə / № 001 (5376). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik

# Prezident İlham Əliyev Əmlak Məsələləri Dövlət Komitəsinin yeni Əmlak Xidmətləri Məkanının açılışında iştirak edib






## Prezidentin iş günü

Prezident İlham Əliyev Azərbaycanın pravoslav xristian icmasını təbrik edib. Təbrikdə deyilir: **“Hörmətli həmvətənlər!**

**Sizi - Azərbaycanın bütün pravoslav xristianlarını müqəddəs Milad bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.**

**Müasir dünyada multikulturalizmin ünvanlarından birinə çevrilən Azərbaycan Respublikası yüksək humanizm və dözümlülük prinsiplərinə əsaslanan mütərəqqi ictimai dəyərlərin demokratik birgəyaşayış norması kimi qəbul edildiyi nümunəvi cəmiyyətə malikdir.**

**Tarixən müxtəlif dinlərin və millətlərin nümayəndələrinin sülh və əmin-amanlıq şəraitində vahid ailə kimi yaşadığı Azərbaycanda pravoslavlıq say etibarilə ən böyük xristian konfessiyasıdır. Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, bu gün cəmiyyətimizin ayrılmaz hissəsi olan pravoslav xristian icması digər dini etiqadların mənsubları ilə birgə respublikamızın tərəqqisi naminə həyata keçirilən böyük quruculuq işlərində, vətəndaş həmrəyliyinin daha da möhkəmləndirilməsində fəal iştirak edir, dinlərarası əməkdaşlıq və etimad mühitinin inkişafına öz layiqli töhfələrini verir. İnanıram ki, pravoslav xristian icması bundan sonra da ümumi evimiz olan Azərbaycanın daha da güclənməsi naminə əlindən gələni əsirgəməyəcəkdir.**

**Əziz həmvətənlər!**

**Hər il Azərbaycanda təntənə ilə qeyd edilən Milad bayramı yeniliyi, paklığı, mərhəmət və xeyirxahlıq kimi ülvi hissləri özündə təcəssüm etdirir. Bu əziz gün münasibətilə bir daha hamınıza bayram təbriklərimi yetirir, ailələrinizə səadət, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram.**

**Bayramınız mübarək olsun!”.**

◆ ❖ ◆

Prezident İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə başsağlığı məktubu göndərib.




## 20 YANVAR FACİƏSİNİN 29-CU İLDÖNÜMÜNÜN KEÇİRİLMƏSİ İLƏ BAĞLI TƏDBİRLƏR PLANI TƏSDİQLƏNİB

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin sərəncamı ilə “20 Yanvar faciəsinin iyirmi doqquzuncu ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı” təsdiq edilib...

Bax səh. 3

## AZƏRBAYCANIN REGİONLARINDA YOL İNFRASTRUKTURUNUN YENİDƏN QURULMASI VƏ TƏKMİLLƏŞDİRİLMƏSİ İLƏ BAĞLI İRİMİQYASLI LAYİHƏLƏR UĞURLA İCRA OLUNUR

Müasir dövrdə dünyanın siyasi və iqtisadi mənzərəsi ziddiyyətlərlə səciyyələnir. Xüsusilə də, qlobal miqyasda baş verən iqtisadi kataklizmlər bir çox ölkələrin böhran kimi səciyyələndirilən mürəkkəb şəraitlə, tənəzzül və ciddi maliyyə problemləri ilə qarşı-qarşıya qalmasına səbəb olub. Ayrı-ayrı sahələrin strateji inkişaf planına və konseptual tərəqqi strategiyasına malik olan dövlətlər isə yeni iqtisadi perspektivlər formalaşdıra, inkişaf üçün əlverişli zəmin yarada biliblər. Bu mənada, Azərbaycan Respublikasının təcrübəsi də mütərəqqi nümunə kimi səciyyələndirilə bilər. Qeyd etmək lazımdır ki, Azərbaycan son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasətin nəticəsində böyük inkişaf yolu keçib. Bu hərtərəfli inkişaf bütün sahələri əhatə etməklə yanaşı...

Bax səh. 8



## YANAN YATAQXANADAKI 18 MƏCBURİ KÖÇKÜN AİLƏSİ MÜVƏQQƏTİ MƏNZİLLƏRDƏ YERLƏŞDİRİLİB

Yanvarın 3-də gecə Xətai rayonunda məcburi köçkünlərin məskunlaşdığı yataqxanada baş vermiş yanğın nəticəsində 18 məcburi köçkün ailəsinin müvəqqəti yaşayış sahəsi yararsız vəziyyətə düşüb...

Bax səh. 3

## 2018-ci il: On dörd mühüm hadisənin geosiyasi analizi və proqnozlar

Ənənəvi olaraq, hər ilin sonunda həmin müddət ərzində baş verən xüsusi əhəmiyyətli hadisələr müəyyənləşdirilir. Burada vahid meyar yoxdur. Biz, müstəqil dövlət quruculuğu baxımından ciddi əhəmiyyəti olan hadisələri müəyyənləşdirib, onların üzərində dayanmaq qərarına gəldik. Təhlil göstərdi ki, cari ildə Azərbaycan dövlət olaraq bütün istiqamətlərdə böyük uğurlar əldə edib. Onların sayı çoxdur. Ancaq geosiyasi, iqtisadi, siyasi, enerji, nəqliyyat, logistika və humanitar aspektlərdə daha çox fərqlənən bir sıra hadisələri qeyd etmək olar. Onları şərti olaraq qruplara da ayırmaq mümkündür. Hər bir halda aydın olur ki, Azərbaycan 2018-ci ildə elə hadisələrə şahid olub ki, onlar müstəqil və demokratik dövlət quruculuğunda yeni mərhələnin başladığını göstərir. Həmin kontekstdə bir sıra özəl məqamların təhlil edilməsini vacib saydıq...

Bax səh. 5

### *Siyavuş Novruzov:* 2018-ci il Azərbaycan tarixinə növbəti uğurlu il kimi daxil oldu, böyük nailiyyətlər əldə edildi

2018-ci il Azərbaycan tarixinə növbəti bir uğurlu il kimi daxil oldu, həm iqtisadi, həm də siyasi sahədə böyük nailiyyətlər...



Bax səh. 3

### 2018-ci il Azərbaycan üçün mühüm uğurlarla və əlamətdar hadisələrlə zəngin oldu

...2018-ci il Azərbaycan üçün mühüm uğurlarla və bir sıra əlamətdar hadisələrlə zəngin olub. Yola saldığımız il ölkəmizin tarixinə daha bir uğurlu il kimi...



Bax səh. 7

### Xalq Cümhuriyyətinin ilk paytaxtına “Azərbaycan Xalq Cümhuriyyəti İli”ndə dəyərli töhfə

Artıq Azərbaycan üçün uğurlarla zəngin daha bir ili başa vurduq. Ötən illər kimi, 2018-ci il də ölkəmizdə bütün sahələrdə inkişafın davamlı olması...



Bax səh. 6

### *Leonid Kalaşnikov:* 2019-cu ildə Azərbaycan xalqının daha da firavanlaşmasını və ən ağrılı problemlərin həll olunmasını arzu edirəm

...2018-ci il Rusiya-Azərbaycan münasibətləri üçün çox fəal olub. Ən yüksək səviyyəli qarşılıqlı səfərlər baş tutub...



Bax səh. 3

# Prezident İlham Əliyev Əmlak Məsələləri Dövlət Komitəsinin yeni Əmlak Xidmətləri Məkanının açılışında iştirak edib





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 3-də Əmlak Məsələləri Dövlət Komitəsinin yeni Əmlak Xidmətləri Məkanının açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, Əmlak Məsələləri Dövlət Komitəsinin sədri Kərəm Həsənov Prezident İlham Əliyevə burada yaradılan şərait barədə məlumat verib. Binanın tikintisinə ötən ilin mayında başlanılıb. Müasir səviyyədə və yüksək zövqlə inşa olunan ikimərtəbəli binanın həyətində avtomobillər üçün parkinq yeri yaradılıb, abadlıq və yaşıllıq işləri görülüb.

Dövlətimizin başçısı Əmlak Xidmətləri Məkanının rəmzi açılışını bildirən lenti kəsib.

Əmlak Xidmətləri Məkanının yaradılmasında əsas məqsəd Əmlak Məsələləri Dövlət Komitəsinin bütün fəaliyyət sahələri üzrə göstərdiyi xidmətlərin vahid məkanda həyata keçirilməsidir. Burada əmlakla bağlı bütün xidmətlər beynəlxalq standartlara uyğun qurulmaqla, şəffaflığın təmin olunması, vətəndaş məmnunluğunun artırılması, vətəndaş-məmur təmaslarının minimuma endirilməsi, xidmətlərin tam elektronlaşdırılması təmin edilib. Şənbə və bazar da daxil olmaqla həftənin bütün günləri məkanda 100-ə yaxın işçi tərəfindən xidmətlərin göstərilməsi nəzərdə tutulur. Burada könüllülərin xidmətlərindən də istifadə olunur. Binada, həmçinin BMT-nin Əlillərin Hüquqları Haqqında Konvensiyasına uyğun olaraq bu qəbildən insanların sərbəst hərəkəti üçün də bütün şərait yaradılıb. Burada notarius, bank, memarlıq və layihələndirmə işləri, əmlakın sığortalanması və poçt xidməti nəzərdə tutulub.






Əmlak Xidmətləri Məkanında 1909-2018-ci illərdə daşınmaz əmlak üzərində mülkiyyət hüquqlarını özündə əks etdirən müxtəlif dövrlərə aid hüquqmüəyyənedici mülkiyyət sənədlərinin sərgiləndiyi arxiv guşəsi də var. Binada kafe, kitabxana, uşaq oyun sahəsi də yaradılıb.

Dövlətimizin başçısına komitə tərəfindən elektronlaşdırılan xidmətlər barədə məlumat verilib. Komitə artıq 40 xidməti elektron qaydada vətəndaşlara birbaşa və e-Hökumət portalı vasitəsilə təqdim edir. Daşınmaz əmlakın qeydiyyatı üzrə ödənilən xidmət haqqının və dövlət rüsumunun öyrənilməsi ilə bağlı vətəndaşlar üçün daha çox maraq doğuran "Əmlak kalkulyatoru" iş prinsipləri və "Elektron çıxarışın yoxlanılması" kimi elektron xidmətlər nümayiş olundu. "Elektron çıxarış" xidməti vətəndaş məmur ünsiyyətini tam məhdudlaşdırır. Belə ki, elektron imzaya sahib vətəndaş istənilən yerdən e-Hökumət portalı vasitəsilə xidmətə müraciət edir, müvafiq sənədlərini göndərir, Komitə tərəfindən hazırlanmış elektron çıxarış isə onun portaldakı şəxsi kabinetinə göndərilir. Vətəndaş digər dövlət orqanlarına müraciət zamanı elektron çıxarışının düzgünlüyünü yoxlamaq üçün "Elektron çıxarışın yoxlanılması" xidmətindən istifadə edir. Qısa müddət keçməsinə baxmayaraq, artıq 8 mindən çox "Elektron çıxarış" sahibi var.

Binada elektron informasiya sistemlərinin tətbiq olunması üçün bütün zəruri infrastruktur yaradılıb və bina müasir İKT avadanlığı ilə təchiz olunub. Məkanda xidmətlərin daha dəqiq, prosedurların sürətli olması üçün elektron idarəetmə sistemini həyata keçirən qurğular quraşdırılıb. Vətəndaşlar elektron monitorlara daxil olmaqla xidmətlərdən internet vasitəsilə də istifadə edə bilirlər.

Özəlləşdirmə hərraclarının keçirilməsi ilə bağlı 100 nəfərlik hərrac zalında monitorlar vasitəsilə özəlləşməyə çıxarılan əmlaklarla tanışlıq, keçirilən özəlləşdirmə hərraclarında həm canlı iştirak etmək, həm də elektron qoşulmaqla hərraca qatılmaq imkanları yaradılıb. Özəlləşmənin elektronlaşdırılması prosesin sürətlənməsinə və investorların marağının artmasına imkan verib. Elektron hərracda elektron imzası olan hər bir vətəndaş yerindən asılı olmayaraq elektron hərrac sisteminə qoşularaq iştirak edə bilər. İndiyədək 28 elektron hərrac keçirilib və 900-dən çox əmlak satışı üzrə elektron sifariş qəbul olunub.

Burada gün ərzində 1000-ə yaxın vətəndaşa xidmət göstərilməsi planlaşdırılır. Əmlak Xidmətləri Məkanında, ümumilikdə, Komitənin fəaliyyət sahələrinə uyğun 46 xidmət təqdim ediləcək. Göstərilən xidmətlərə dövlət əmlakının idarə edilməsi və özəlləşdirilməsi, dövlət və bələdiyyə əmlakı ilə bağlı hərracların təşkili, torpaq və qeyri-yaşayış sahələrinin icarəyə verilməsi, əmlakın qiymətləndirilməsi, daşınmaz əmlakın qeydiyyatı ilə bağlı müraciətlərin qəbulu, hazır sənədlərin təqdim edilməsi və digər xidmətlər daxildir.

Prezident İlham Əliyevə torpaqların idarə edilməsində istifadə olunan Peyk Müşahidə Sistemi layihəsinin iş prinsipi barədə məlumat verilib. Layihənin məqsədi torpaqlara dövlət nəzarətinin həyata keçirilməsində çevikliyin artırılması, qanunsuz tikililərin, torpağın münbit qatının korlanmasının qarşısının alınması, torpaq tədqiqatı, geobotaniki tədqiqat zamanı yeni texnologiyaların, süni intellektin imkanlarından istifadə edilməsidir. Layihə nəticəsində ölkə ərazisi peyk vasitəsilə 5 gündən bir çəkilir. Peyk vasitəsilə çəkilmiş bütün təsvirlər süni intellektin tətbiq olunduğu Peyk Müşahidə Sisteminə daxil edilir. Süni intellekt vasitəsilə təsvirlərin analizi başlayır və əvvəlki təsvirlərlə sonrakı təsvirlər arasındakı fərqlər, yəni hər çəkilişdən sonrakı dövrdə torpaq səthində baş verən dəyişikliklər və onların koordinatları Sistem vasitəsilə avtomatik olaraq müəyyən edilir. Sistem vasitəsilə torpaq səthində aşkarlanmış dəyişikliklərə yerində baxışın keçirilməsi Komitənin torpaq müfəttişləri tərəfindən təmin edilir, aşkarlanmış qanunsuz tikililərin qarşısı alınır, torpağın münbit qatının korlanmasına və ümumiyyətlə, qeyri-qanuni istifadəsinə yol verilmir. Komitə ilə yanaşı, Peyk Müşahidə Sisteminin imkanlarından kənd təsərrüfatı təyinatlı torpaqlarda əkilmiş bitkilərin müəyyənləşdirilməsi və monitorinqi məqsədilə Kənd Təsərrüfatı Nazirliyi, fövqəladə hadisələr zamanı meşə yanğınlarının müəyyən edilməsi və təbiətə dəyən zərərin monitorinqi, su daşqınları zamanı dəyişikliklərin və çaylarda suların artma-azalma intensivliyinin müəyyən edilməsi məqsədilə Fövqəladə Hallar Nazirliyi, meşə fonduna daxil olan ərazilərdə dəyişikliklərin müəyyən edilməsi məqsədilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi, eyni zamanda, yerli icra hakimiyyəti orqanları və bələdiyyələr tərəfindən istifadə olunacaq. Sistemin bu ilin əvvəlindən ilkin sınaqlar həyata keçirməklə tam istifadəyə verilməsi nəzərdə tutulur.

Eyni zamanda, lokal ərazilərdə torpaqlarda baş verən dəyişikliklərin öyrənilməsi, nəzarətin keyfiyyətinin artırılması, daşınmaz əmlakın kadastrı və torpaqların elektron uçotunun aparılması, məkan məlumatları və aerofoto çəkilişlərlə yanaşı, yeni texnologiya olan dron çəkilişlərindən də istifadə ediləcək.

Əmlakların 3D çəkilişlərinin aparılması məqsədilə son texnologiyalardan olan "Matterport" avadanlığından istifadə edilir. Bu innovativ avadanlıq daşınmaz əmlak, mənzil, fərdi ev, zavod, fabrik, muzey və digər tikililərin 3D modelini əldə edir, plan-çertyojları və ölçüləri avtomatik olaraq qısa müddət ərzində hazırlayır, əmlakın qeydiyyatında, hərraclarda, özəlləşdirmədə əmlak barəsində ətraflı məlumatı təqdim edir.

"Streetview" layihəsi nəqliyyat infrastrukturu obyektlərinin vizual rəqəmsallaşdırılmasını, seçilmiş yollar, küçə və prospektlər üzrə ünvan reyestrinin dayanıqlı idarə olunmasını təmin edir. Bu sistem əldə olunan məlumatların Ünvan portalına inteqrasiyasını və reyestrdə ünvanvermə işinin asanlaşdırılmasını təmin edir.

Prezident İlham Əliyev kollektivə uğurlar arzulayıb.

Sonda xatirə şəkli çəkdirilib.

# Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi hissəsində Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə tədbir keçirilib







Dekabrın 31-də Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) N saylı hərbi hissəsində Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə tədbir keçirilib.








AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Birinci-vitse prezidenti Mehriban Əliyeva tədbirdə iştirak edib.

Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-polkovnik Mədət Quliyev Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin adından hərbi hissənin şəxsi heyətini təbrik edib, Vətənin müdafiəsi kimi şərəfli və məsuliyyətli xidmətlərində zabit və əsgərlərə uğurlar arzulayıb. Bildirib ki, Ulu öndər Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycan dövlətimizin başçısı İlham Əliyevin müdrik rəhbərliyi ilə inkişaf edərək daha da qüdrətlənir.

Prezident İlham Əliyevin yorulmaz səyləri sayəsində Azərbaycanın möhtəşəm uğurlara nail olduğunu qeyd edən Xidmət rəisi dövlətimiz tərəfindən görülən tədbirlər nəticəsində respublikanın müdafiə qabiliyyətinin, Silahlı Qüvvələrin hərbi-texniki potensialının durmadan möhkəmləndiyini, Azərbaycan Ordusunun dünyanın 50 ən güclü ordusu sırasına yüksəldiyini diqqətə çatdırıb. Mədət Quliyev Prezident İlham Əliyevi bir daha əmin edib ki, Dövlət Təhlükəsizliyi Xidmətinin şəxsi heyəti Ali Baş Komandanın hər bir əmr və göstərişlərini bundan sonra da yüksək peşəkarlıqla, əzmlə və dərhal yerinə yetirəcək.

Sonra DTX-nin Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin və respublikanın tanınmış incəsənət nümayəndələrinin iştirakı ilə maraqlı konsert proqramı olub.

Sonda hərbi hissənin xidmətdə fərqlənmiş əsgərləri mükafatlandırılıb. Həmçinin hərbi tədrisdə yüksək nəticələr əldə etmiş əsgərlərin valideynlərinə, o cümlədən əsgər Heydər Əliyevin valideyni birinci xanım Mehriban Əliyevaya təşəkkür məktubu təqdim olunub.

# 20 Yanvar faciəsinin 29-cu ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı təsdiqlənib




Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin sərəncamı ilə "20 Yanvar faciəsinin iyirmi doqquzuncu ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı" təsdiq edilib.

AZƏRTAC xəbər verir ki, sənədə əsasən respublikanın şəhər və rayonlarında, idarə və təşkilatlarda 20 Yanvar hadisələrinin mahiyyətini əks etdirən konfrans, toplantı və mühazirələrin təşkili, 20 Yanvar gününün Azərbaycanın suverenliyi, istiqlaliyyəti və ərazi bütövlüyü uğrunda mübarizə rəmzi kimi qeyd olunması ilə bağlı tədbirlərin keçirilməsi, mədəniyyət ocaqlarında faciəyə həsr olunmuş tamaşaların, bədii və sənədli filmlərin nümayiş etdirilməsi nəzərdə tutulur.

Həmçinin dünya ictimaiyyətinin diqqətini bu faciəyə yönəltmək məqsədilə Azərbaycanın xarici ölkələrdəki diplomatik nümayəndəlikləri və icmaları vasitəsilə müvafiq tədbirlərin keçirilməsi, dünyanın aparıcı kütləvi informasiya vasitələrində, eləcə də televiziya kanallarında və internet şəbəkələrində 20 Yanvar hadisələri barədə müxtəlif dillərdə materialların hazırlanması və yayılmasının təmin olunması barədə tapşırıqlar verilib.

Tədbirlər planına əsasən, respublikanın bütün tədris müəssisələrində faciəyə həsr edilmiş xüsusi dərs keçiriləcək, 20 Yanvar hadisələri zamanı şəhid olanların ailələrinə humanitar yardımlar göstəriləcək, Şəhidlər xiyabanı ərazisində lazımi işlər aparılacaq, faciə qurbanlarının xatirəsinə həsr olunan dini mərasimlər təşkil ediləcək.

Bundan başqa, sərəncamda paytaxt ictimaiyyətinin yanvarın 20-də Şəhidlər xiyabanına ziyarətinin təşkili, saat 12.00-da bütün ölkə ərazisində şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi, respublikanın şəhər və rayonlarında, kənd və qəsəbələrində 20 Yanvar faciəsinin iyirmi doqquzuncu ildönümü ilə əlaqədar hüzn əlaməti olaraq dövlət bayraqlarının endirilməsi və digər tədbirlər planlaşdırılır.

# Yanan yataqxanadakı 18 məcburi köçkün ailəsi müvəqqəti mənzillərdə yerləşdirilib







Yanvarın 3-də gecə Xətai rayonunda məcburi köçkünlərin məskunlaşdığı yataqxanada baş vermiş yanğın nəticəsində 18 məcburi köçkün ailəsinin müvəqqəti yaşayış sahəsi yararsız vəziyyətə düşüb.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsindən Trend-ə verilən məlumata görə, Baş nazirin müavini Əli Əhmədov, Dövlət Komitəsinin sədri Rövşən Rzayev, Xətai rayon İcra Hakimiyyətinin başçısı vəzifəsini müvəqqəti icra edən Rafiq Quluyev, komitənin və icra hakimiyyətinin məsul əməkdaşları hadisə yerində olub, yaranmış problemin həlli üçün birlikdə müvafiq tədbirlər görüblər.

Yanğın baş verdikdən sonra Dövlət Komitəsi tərəfindən yaradılmış komissiya hadisə yerinə gedib, siyahıyaalınma aparılıb. 17-si Füzuli, biri Laçın rayonundan olmaqla, 18 məcburi köçkün ailəsi artıq müvəqqəti mənzillərdə yerləşdirilib. Həmin ailələr dövlət tərəfindən mənzillə təmin edilənə qədər orada yaşayacaqlar.

Hazırda FHN-in mütəxəssisləri tərəfindən yanğının başvermə səbəbləri araşdırılır. Araşdırmadan sonra yekun rəy veriləcək. Rəy əsasında müvafiq hüquqi addımlar atılacaq.

Xatırladaq ki, yanvarın 3-də Bakı şəhərinin Xətai rayonunda məcburi köçkünlərin məskunlaşdığı, ümumi sahəsi 1020 kvadratmetr olan ikimərtəbəli, 11 otaq və klubdan ibarət yataqxana binasının (1933-cü ildə inşa olunub) dam örtüyünün (taxta atmalar) yanar konstruksiyaları 500 kvadratmetr sahədə və klubun yanar konstruksiyaları 190 kvadratmetr sahədə (ümumi 690 kv.m) yanıb. Yanğın yanğından mühafizə bölmələri tərəfindən söndürülüb.

# Siyavuş Novruzov: 2018-ci il Azərbaycan tarixinə növbəti uğurlu il kimi daxil oldu, böyük nailiyyətlər əldə edildi




2018-ci il Azərbaycan tarixinə növbəti bir uğurlu il kimi daxil oldu, həm iqtisadi, həm də siyasi sahədə böyük nailiyyətlər əldə edildi. Bunu "Trend"ə Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri, Yeni Azərbaycan Partiyası (YAP) İcra katibinin müavini Siyavuş Novruzov deyib.

S.Novruzov vurğulayıb ki, ümumiyyətlə, Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi 2003-cü ildən bu vaxtadək olan müddət Azərbaycan tarixinə hərtərəfli və sürətli inkişaf dövrü kimi daxil olub: **"Bu baxımdan geridə qoyduğumuz 2018-ci il də istisna olmayıb. Xüsusi vurğulamaq istərdim ki, Azərbaycanda demokratikləşmə və modernləşmə sahəsində keyfiyyətcə yeni mərhələnin əsasını qoymuş 2018-ci il 11 aprel seçkiləri ölkəmizin innovativ əsasda inkişafına ciddi zəmin yaradıb, islahatların elmi əsaslarla aparılacağı qənaətini daha da gücləndirib. Son seçkilərdən dərhal sonra dövlət başçısının siyasi iradəsi ilə hökumətin tərkibinin əsaslı şəkildə yenilənməsi, çevikliyi, müasirliyi, novatorluğu ilə fərqlənən, müasir innovasiyaları mənimsəyən gənclərin dövlət idarəetməsində irəli çəkilməsi islahatların səmərəliliyini təmin etmək, şəffaflığı artırmaq məqsədindən irəli gəlir".**

Millət vəkili bildirib ki, ötən ildə həyata keçirilən sosial-iqtisadi islahatların, infrastruktur layihələrinin səmərəli nəticələr verməsi, hər bir fərdin maraq və mənafeyini özündə maksimum dərəcədə əks etdirməsi, dövlətin perspektiv inkişafına hesablanması dövlət başçısı cənab İlham Əliyevin yüksək bilik və intellektə, çevik idarəçilik məharətinə, yüksək əzmə, qətiyyətə malik lider olduğunu bir daha təsdiqləyir.

Deputat qeyd edib ki, Azərbaycanın qarşısında duran ən mürəkkəb problem, heç şübhəsiz, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsidir: **"Lakin ötən il Azərbaycanın Ermənistana qarşı uğurla tətbiq etdiyi "iqtisadi izolyasiya" siyasəti nəticəsində bu ölkədə ciddi sosial-siyasi kataklizmlər baş verib, hakimiyyət dəyişikliyi olub. Paralel olaraq Azərbaycan Silahlı Qüvvələrinin döyüş potensialı daha da artıb, ordumuz dünyanın ən güclü orduları sırasında ön cərgələrə çıxıb".**

S.Novruzov əlavə edib ki, başa vurduğumuz ilin əlamətdar hadisələrindən biri də daim milli-mənəvi dəyərlərimizə verilən yüksək qiymət çərçivəsində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin dövlət səviyyəsində, ölkə miqyasında və diplomatik nümayəndəliklərimizin yer aldığı xarici ölkələrdə geniş və təntənəli şəkildə qeyd edilməsi oldu.

# Hikmət Babaoğlu: 2018-ci ildə görülən işlər 2019-cu ildəki inkişafımız üçün yeni münbit əsaslar yaradıb



Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə xalqımıza təbriki əslində 2018-ci ildə görülən işlər və 2019-cu ildə qarşıda duran vəzifələrlə bağlı bir növ qısa hesabat idi. Təqdim olunan rəqəmlərdən və hesabatdan da göründüyü kimi, 2018-ci il xalqımız üçün bir sıra mühüm məsələlərlə bağlı əlamətdar olub. Yola saldığımız 2018-ci ili xarakterizə edən əsas cəhətlər onun sabit inkişaf ili kimi yadda qalması, bir sıra problemlərin həll edilməsi, eyni zamanda, Azərbaycanın beynəlxalq nüfuzunun daha da artması və nəhayət, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ probleminin həlli ilə bağlı yeni münbit şərtlərin ortaya çıxması olub. Əgər biz bu qısa ümumiləşdirməni bir qədər dərindən təhlil etməyə çalışsaq görəcəyik ki, əldə etdiyimiz bu nailiyyətlər 2015-2017-ci illərdə ölkəmizdə həyata keçirilən konstitusion və institusional islahatlar sayəsində mümkün olmaqla 2018-ci ilin inkişaf şərtlərini formalaşdırıb. Yola saldığımız ilin aprel ayında keçirilən prezident seçkiləri və onun nəticələri isə reallaşdırılan islahatlara xalqın dəstəyinin ifadəsi olmaqla milli iradənin legitim əsaslar formalaşdıraraq Prezident İlham Əliyev tərəfindən həyata keçirilən siyasi kursun davam etdirilməsinin təminatçısı olub. Ona görə həm iqtisadi, həm də siyasi baxımdan heç də sadə olmayan beynəlxalq şərtlər içində Azərbaycan bu nailiyyətləri əldə edib.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu bildirib.

Deputat qeyd edib ki, 2018-ci ildə Azərbaycanın həyata keçirdiyi bir sıra beynəlxalq layihələr başa çatıb və ölkəmiz üçün real gəlirlər gətirməyə başlayıb. Bunlar, ilk növbədə, "Cənub Qaz Dəhlizi" layihəsi çərçivəsində onun mühüm seqmenti olan TANAP-ın tikilib başa çatdırılması, eyni zamanda, ölkəmizin xaricdə ən böyük investisiyası hesab edilən "Star" neft emalı zavodunun açılışı olub. Bu layihələrin reallaşdırılması təkcə Azərbaycan üçün deyil, digər tərəfdaş ölkələr üçün də mühüm hadisəyə çevrilib, Avropanın enerji təhlükəsizliyi üçün mühüm alternativ kimi özünü təsdiq edib, eyni zamanda, Azərbaycan-Qərb münasibətlərində yeni etibarlı iqtisadi körpü rolunu oynamağa başlayıb. Bu, Türkiyə-Azərbaycan strateji müttəfiqliyini iqtisadi müstəvidə daha da dərinləşdirməklə hər iki tərəfin gücünü və nüfuzunu bir qədər də artırıb.

Hikmət Babaoğlu əlavə edib ki, yadda qalan əsas iqtisadi hadisələrdən biri də Sumqayıt Kimya Sənaye Parkında inşaat kimyəviləri zavodunun açılışı olub. Bu zavod Azərbaycanda qeyri-neft ixracının xüsusi çəkisinin xeyli dərəcədə artmasını təmin edib. Ölkəmizdə çoxsaylı sənaye məhəllələri və aqrar sənaye kompleksləri tikilib istifadəyə verilib. Üzümçülüyün, pambıqçılığın, baramaçılığın, şərabçılığın, tütünçülük sənayesinin inkişafı ilə bağlı olduqca böyük işlər görülüb. Bu işlər 2019-cu ildəki inkişafımız üçün yeni münbit əsaslar yaradıb ki, əslində bu da yeni ildə əldə edəcəyimiz uğurlar üçün baza rolunu oynayacaq. Sosial sahədə çox böyük işlər görülüb. Əhalinin aztəminatlı təbəqəsinin problemləri daim diqqət mərkəzində saxlanılıb, şəhid hərbi qulluqçuların vərəsələrinə birdəfəlik ödəmələrin verilməsinə başlanılıb və bu proses davam edir. Qaçqın və məcburi köçkün ailələrinə təkcə 2018-ci ildə 5800 mənzil verilib ki, bu da rekord göstərici hesab oluna bilər.

Deputat bildirib ki, yola saldığımız il Azərbaycanın beynəlxalq nüfuzunun artması ili kimi də səciyyələndirilə bilər. Beynəlxalq uğurlar sırasında, ilk növbədə, Azərbaycanın Avropa İttifaqı ilə imzaladığı Tərəfdaşlığın Prioritetləri sənədinin paraflanmasını qeyd etmək olar. Bu sənəddə ölkəmizin ərazi bütövlüyü və sərhəd toxunulmazlığının Avropa İttifaqına üzv olan dövlətlər tərəfindən bir daha dəstəklənməsi və qəbul edilməsi əksini tapıb. İkinci mühüm nailiyyət Xəzər dənizinin hüquqi statusu ilə bağlı hüquqi Konvensiyanın imzalanması sayıla bilər ki, bu da Azərbaycanın xarici siyasətini uzun illərdir məşğul edən məsələlərdən biri idi. Konvensiyanın imzalanması Xəzər hövzəsində qarşılıqlı inteqrasiyanın təmin edilməsi və mövcud resursların koordinasiyalı və səmərəli istifadə edilməsi baxımından olduqca mühümdür. Bu Konvensiya Xəzər hövzəsində yeni cəlbedici iqtisadi təmərküzləşmə yaradacaq ki, bu da turizm, mədəni və humanitar sahələrdə yeni inkişaf perspektivlərini formalaşdıracaq. Ən əsas məsələ isə heç şübhəsiz, işğalçı Ermənistanın küncə sıxışdırılması, erməni təxribatına qarşı bir neçə uğurlu hərbi əməliyyatın keçirilməsi oldu ki, bu da 2019-cu ildə problemin həllinə yeni fəal impulslar daxil etdi. Ona görə də 2018-ci ilə müxtəlif aspektlərdən baxanda olduqca uğurlu bir il kimi yadda qaldı.

# Leonid Kalaşnikov: 2019-cu ildə Azərbaycan xalqının daha da firavanlaşmasını və ən ağrılı problemlərin həll olunmasını arzu edirəm



RF Dövlət Dumasının MDB Məsələləri üzrə Komitəsinin sədri Leonid Kalaşnikov "Moskva-Baku" informasiya portalına müsahibəsində Rusiya-Azərbaycan parlamentlərarası əməkdaşlığı barədə danışıb.

* * *

2018-ci il Rusiya-Azərbaycan münasibətləri üçün çox fəal olub. Ən yüksək səviyyəli qarşılıqlı səfərlər baş tutub.

Bu il beş Xəzəryanı dövlətin prezidentləri arasında konstruktiv uğurlu danışıqlarla əlamətdar olub. Həmin danışıqlar nəticəsində Xəzər dənizinin hüquqi statusu barədə Konvensiya imzalanıb. Müzakirələri 20 ildən çox davam edən Konvensiya artıq Dövlət Dumasına daxil olub və yaxın vaxtlarda ratifikasiya ediləcək.

Parlament forumları məkanında Rusiya Federasiyası Dövlət Dumasının və Azərbaycan Milli Məclisinin rəhbərləri arasında dəfələrlə görüşlər keçirilib, ilin əvvəlində Azərbaycan Parlamentinin spikeri Oqtay Əsədov Moskvaya, RF Dövlət Dumasının sədri Vyaçeslav Volodin Bakıya səfər edib, Azərbaycan Prezidenti İlham Əliyevlə görüşüb. 2018-ci ildə bizim parlamentarilər Azərbaycan parlamentinin 100 illiyinə həsr edilmiş tədbirlərdə və Bakı Humanitar Forumunda iştirak ediblər.

Rusiya ilə Azərbaycan arasında yüksək səviyyəli parlamentlərarası komissiya yaradılması barədə qərar da mühüm hadisə oldu. Rusiya üçün vacib dövlətlərlə bu cür geniş tərkibli komissiyalar yaradılmasını qərara alarkən məqsəd bu idi ki, sadəcə söhbət etməklə və ya "parlament turizmi" ilə məşğul olmaqla kifayətlənməyib, həqiqətən ciddi konkret məsələləri həll edək. Bu məqsədlə həmin komissiyaların tərkibinə parlamentin bütün aparıcı profil komitələrinin, məsələn Nəqliyyat və tikinti komitəsinin, İqtisadi siyasət, sənaye, innovasiyalı inkişaf və sahibkarlıq komitəsinin, habelə Energetika komitəsinin rəhbərlərini daxil etmişik. Bu, parlamentlər səviyyəsində ikitərəfli əməkdaşlığın genişləndirilməsi üzərində işin sürətinin və səmərəsinin artırılmasını təmin etməyə imkan verəcək.

Komissiyaya həm Rusiya, həm də Azərbaycan tərəfindən parlament sədrlərinin müavinləri başçılıq edir.

Hazırda Rusiya 15 ölkə ilə bu cür yüksəksəviyyəli parlamentlərarası komissiya yaradıb.

2018-ci ildə humanitar və mədəni əməkdaşlıq istiqamətində də fəal tədbirlər görmüşük. Məsələn, Dövlət Dumasında bizim parlamentin tarixində ilk dəfə konkret ölkəyə həsr edilmiş milli sərgi təşkil edilib. Məhz Azərbaycanla birgə keçirilən bu sərgi böyük maraq doğurdu.

Bütün ölkəmizi təmsil edən 450 rusiyalı deputat Azərbaycan Respublikanın son illərdə necə dəyişməsini və turistlər üçün cəlbedici olmasını gördülər. Çoxları belə bir faktı özləri üçün "kəşf etdi" ki, adətən yalnız neft və meyvə ilə assosiasiya doğuran Azərbaycanda bu gün xizək idmanı ilə məşğul olmaq imkanları Alp dağları ilə müqayisədə heç də pis deyil. Azərbaycan istər qonaqların qəbul edilməsi səviyyəsinə, istərsə də təbiətin gözəlliyinə, dağ yamaclarının idman məşğələləri üçün münasibliyinə, habelə mehmanxanaların keyfiyyətinə görə həqiqətən çox cəlbedicidir. Bu faktlar çoxları üçün əsl kəşf olub. Təsəvvür edin ki, bu gün Azərbaycanın belə potensiala malik olması barədə Rusiya əhalisinin məlumatlanma səviyyəsi çox aşağıdır. Biz Azərbaycanın belə imkanları barədə rusiyalıları məlumatlandırmalı, Turizm Nazirliyinin diqqətini bu məsələyə cəlb etməliyik. Biz Azərbaycan Prezidenti İlham Əliyevlə görüşdə Onunla da bu mövzuda söhbət etdik. Şəxsən mən Ona dedim: Türkiyəyə fikir verin, Türkiyə kurortları Rusiyada reklam edilir. Mənə belə gəlir ki, dost Azərbaycan Respublikasının kurortları barədə də Rusiyada, hətta daha geniş miqyasda belə tədbirlər görmək olar.

Məsələn, mənim bir siyasətçi dostum bu il Azərbaycana - Şahdağda xizək sürməyə gedəcək. Azərbaycanda istirahət etməyə gedən belə insanlar çoxdur.

Bütövlükdə bizim ikitərəfli münasibətlər barədə qeyd etmək istəyirəm ki, heç nə, hətta Cənub Qaz Dəhlizinin işə salınması da bu münasibətlərə xələl gətirə bilməz. Fikir verin, bəzi qonşularımız "Şimal axını-2" layihəsinin əleyhinə çıxış edir. Biz isə bütün bunlara rəğmən Azərbaycanla dostluğu və əməkdaşlığı davam etdiririk. Düzdür, Azərbaycan tərəfindən rəqabət bizi də sevindirmir, lakin biz başa düşürük ki, rəqabət öz yerində, amma bu səbəbdən iki dövlətin dostluğu zəifləyə bilməz. Rusiyanın bu cür qaz siyasəti bəzi işbazların, oliqarxların xoşuna gəlməyə bilər. Lakin Putinin, Rusiya dövlətinin Azərbaycana münasibətdə siyasəti dostcasına siyasətdir, biz bunu heç vaxt gizlətmirik və başqalarına da başa salırıq.

Mənim fikrimcə, həm Rusiyanın, həm də Azərbaycanın xoşbəxtliyindən, bizim bu cür münasibətlərimizin əsası ondan ibarətdir ki, hər iki ölkənin prezidentləri bu dostluğun, bu cür qarşılıqlı münasibətlərin qədrini bilir. Bu, çox vacibdir və biz əlimizdən gələni etməliyik ki, bundan sonra da belə olsun, heç kəs bunu şübhə altına almasın. Əks halda bu, Rusiyanın siyasi mənafelərinə zidd olar.

Azərbaycanla parlamentlərarası əməkdaşlığın perspektivləri məsələsinə gəldikcə, qeyd etməliyəm ki, hazırda, 2019-cu ilin lap əvvəlində Dövlət Dumasında birgə konfrans keçiriləcək.

2019-cu ildə Rusiya və Azərbaycan parlamentlərinin sədrlərinin qarşılıqlı səfərləri nəzərdə tutulur. Bu səfərlərin konkret müddətini demək hələ çətindir, lakin belə səfərlər planlaşdırılıb. Güman edirəm ki, görüşdə yüksəksəviyyəli parlamentlərarası komissiya yaradılması barədə müqavilə imzalanacaq. Rusiya tərəfindən həmin komissiya barədə sənədlər hazırlanıb, həm Xarici İşlər Nazirliyində, həm də Duma Şurasında razılaşdırılıb. Azərbaycanda son məsləhətləşmələr aparılır. Ümumiyyətlə, bu məsələ ilə əlaqədar xırda ştrixlər qalıb.

Bizim spikerlər qarşılıqlı ikitərəfli səfərlərdən əlavə bir sıra ümumi məkanlarda, o cümlədən Qazaxıstanda Avrasiya dövlətləri spikerlərinin parlament sammitində görüşəcəklər.

Biz beş Xəzəryanı dövlətin spikerlərinin Xəzər regionunun inkişafı problemlərinə həsr edilmiş konfransını keçirmək imkanını da araşdırırıq. Bu məsələ bütün 5 dövlətin spikerləri ilə müzakirə ediləcək. Lakin Azərbaycan və Rusiya, bizim spiker Volodin belə konfransın keçirilməsinə tərəfdardır. Həmin tədbiri Xəzər sahilində 5 ölkənin şəhərlərindən birində keçirmək olar.

Sonda mən Azərbaycan xalqını Yeni il münasibətilə təbrik etmək istərdim. Azərbaycan xalqına daha artıq firavanlıq, respublikanı narahat edən ən ağrılı problemlərin hamısının həll olunmasını arzu edirəm. Hesab edirəm ki, ən ağrılı problemləri yalnız qonşu ölkələr, bizim prezidentlər danışıqlar masası arxasında həll edə bilər. Lakin təəssüf ki, bu məsələyə üçüncü qüvvənin, bizim ölkələrimizdən bir neçə min kilometr uzaqda yerləşən qüvvənin müdaxilə etməsi göz qabağındadır. O, problemdən öz məqsədləri üçün istifadə edir. Mən, o cümlədən bu səbəbdən, ATƏT-in Minsk qrupuna şübhə ilə yanaşıram. 30 ilə yaxın müddət ərzində Dağlıq Qarabağ münaqişəsi problemi həll edilməyib. Mən əminəm ki, Azərbaycanın inkişafına, onun həyatına kölgə salan məsələlər həll ediləcək. Əsas odur ki, Azərbaycan Respublikası düzgün istiqamətdə irəliləyir.

Mən həm ölkənizin vətəndaşlarına, həm də onun rəhbərliyinə uğurlar arzulamaq istərdim. Mənim üçün çox xoşdur ki, Azərbaycan rus dilinin inkişafı üçün əlverişli şəraiti qoruyub saxlayır, rusdilli məktəbləri saxlayır və yenilərini açır. Mən onu həmişə nümunə gətirirəm.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın və Prezident İlham Əliyevin fəaliyyətinə, onların respublikada rus dilinin və rus məktəblərinin qorunub saxlanması məsələsinə necə yanaşmalarına xüsusi hörmət bəsləyirəm. Mən Azərbaycan vətəndaşlarına, o cümlədən Rusiyada yaşayan azərbaycanlılara uğurlar, sevgi, dostluq, xoşbəxtlik arzu edirəm. Ümidvaram ki, mənim bütün arzularım və azərbaycanlıların Yeni il axşamında ürəklərində tutduğu niyyətlər həyata keçəcək!

# 2018-ci il Azərbaycan üçün uğurlu il olub, ölkəmiz bütün istiqamətlər üzrə sürətlə inkişaf edib

***Prezident İlham Əliyev:** Bundan sonra da çalışacağam ki, Azərbaycanın inkişafı, Azərbaycanın gücləndirilməsi, xalqın rifahının artması üçün əlimdən gələni əsirgəməyim*

*Hər yeni ilin əvvəlində, adətən, keçilmiş yola nəzər salınır, nəticələr təhlil edilir və perspektiv hədəflər müəyyənləşdirilir. Bəs artıq tarixə qovuşan 2018-ci il müstəqil Azərbaycan üçün necə keçdi, ölkəmiz hansı uğurlara imza atdı?*

*Sualın cavabında hər şeydən əvvəl onu vurğulamaq yerinə düşər ki, ölkəmizdə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin yüksək səviyyədə qeyd edildiyi 2018-ci ildə də daxili sabitlik təmin olundu, iqtidar-xalq həmrəyliyi daha da möhkəmləndi və bu əsasda müstəqil respublikamız ili inamla başa vurdu. Əlamətdar haldır ki, 2018-ci ildə yaxın-uzaq coğrafiyalarda yerləşən ayrı-ayrı ölkələrdə ciddi problemlər yaşanmasına, böhran meyillərinin davam etməsinə baxmayaraq, Azərbaycan xarici mənfi təsirlərə inamla müqavimət göstərdi və inkişafın ardıcıllığını təmin etməyə nail oldu. Yeri gəlmişkən, Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbrikində 2018-ci ili ölkəmiz üçün uğurlu il kimi səciyyələndirib.* ***“Tam əminliklə demək olar ki, 2018-ci il ölkəmiz üçün uğurlu il olmuşdur. Ölkəmiz bütün istiqamətlər üzrə uğurla, sürətlə inkişaf etmişdir”,*** *- deyə dövlət başçısı vurğulayıb.*



## GÜCLÜ İQTİSADİYYAT 2018-Cİ İLDƏ ÖLKƏNİN İNAMLI İNKİŞAFININ TƏMƏLİNDƏ DAYANAN ƏSAS AMİL QİSMİNDƏ ÇIXIŞ EDİB

Davamlı inkişaf üçün rəqabətqabiliyyətli iqtisadiyyat fundamental amil rolunda çıxış edir. Son 15 ildə dünya miqyasında iqtisadi baxımdan Azərbaycan qədər dinamik inkişaf edən ikinci ölkə olmayıb. Hətta dünya üçün çətin keçən illərdə də respublikamızın iqtisadiyyatı yüksək dayanıqlılıq nümayiş etdirib.

Bir sözlə, güclü iqtisadiyyat 2018-ci ildə də ölkənin inamlı inkişafının təməlində dayanan əsas amil qismində çıxış edib. Ölkəmizdə rəqabətə davamlı iqtisadiyyat quruculuğundan söhbət açarkən məqsədyönlü şəkildə həyata keçirilən şaxələndirmə siyasətinin önəmini xüsusi qeyd etmək lazımdır. Məlumdur ki, Azərbaycan zəngin karbohidrogen ehtiyatlarına malik olan ölkədir. Xəzərin neft-qaz ehtiyatlarının işlənməsinə dair transmilli şirkətlərlə imzalanan müqavilələr çərçivəsində respublikamıza böyük həcmlərdə valyuta gəlir. Bununla belə, Azərbaycan ölkə iqtisadiyyatının birqütblü olmasını və neft amilindən asılı qalmasını heç vaxt qəbul etməyib. Əksinə, respublikamız qazandığı neft gəlirlərini çoxqütblü iqtisadiyyat quruculuğuna yönəltməyə üstünlük verib. Son 15 ildə respublikamızda qeyri-neft sektorunun inkişaf etdirilməsi istiqamətində məqsədyönlü siyasət aparılıb və dəstək tədbirləri gücləndirilib.

*“Dünya Bankının “Doing Business” proqramının son hesablamalarında Azərbaycan dünya miqyasında 25-ci yerə layiq görülüb. Yəni, bu, onu göstərir ki, apardığımız islahatlar, şəffaflıq, ciddi iqtisadi islahatlar öz nəticəsini verir və Dünya Bankı bunu yüksək qiymətləndirir”*

Ölkəmizdə neftdənkənar iqtisadiyyatın, o cümlədən də qeyri-neft sənayesinin, aqrar sektorun inkişafının dövlət tərəfindən güclü şəkildə təşviq edilməsi və siyasi və maddi cəhətdən dəstəklənməsi öz növbəsində uğurlu göstəricilərin əldə olunmasını şərtləndirir. Təsadüfi deyil ki, 2018-ci ildə milli iqtisadiyyatımızda ən yaxşı inkişaf göstəriciləri məhz qeyri-neft iqtisadiyyatında qeydə alınıb. Təkcə belə bir faktı vurğulamaq kifayətdir ki, ötən il respublikamızda qeyri-neft sənayesində 9 faizdən çox artıma nail olunub ki, bu da kifayət qədər yaxşı göstəricidir.

2018-ci ildə maliyyə imkanlarının genişlənməsi və strateji valyuta ehtiyatlarının artması ölkəmizin inamlı inkişafını təsdiqləyən daha bir önəmli faktdır. Bu gün Azərbaycan dünyanın azsaylı ölkələrindəndir ki, heç bir başqa dövlətdən, heç bir beynəlxalq təşkilatdan asılı deyil. Ölkəmizin maliyyə vəziyyəti kifayət qədər yaxşıdır. Xatırladaq ki, 2018-ci ildə respublikamızın strateji valyuta ehtiyatları 45 milyard dollara çatıb.

Ölkənin investisiya cəlbediciliyinin artması da olduqca müsbət göstəricidir. 2018-ci ildə respublikamıza müxtəlif mənbələrdən təxminən 10 milyard dollar həcmində investisiya yönəldilib. Sevindirici hal ondan ibarətdir ki, bu vəsaitin yarıdan çoxu qeyri-neft sektoruna qoyulub. 2018-ci ilin iyul ayında yerli və xarici sərmayələr hesabına reallaşdırılan “SOCAR Polymer” layihəsi çərçivəsində polipropilen zavodunun açılışı çox əlamətdar hadisədir. Yaxın perspektivdə “SOCAR Polymer”in ikinci layihəsinin - yüksəksıxlıqlı polietilen zavodunun da istifadəyə verilməsi nəzərdə tutulub.

Eyni zamanda, milli iqtisadiyyatı getdikcə güclənən və maliyyə imkanları artan Azərbaycan xarici ölkələrdə özünün investisiya fəallığını artırır. 2018-ci il oktyabrın 19-da Türkiyənin İzmir şəhərində Azərbaycanın investisiya qoyuluşu hesabına inşa edilən “Star” neft emalı zavodunun açılış mərasimi keçirilib. “Star” neft emalı zavodunda ildə 1,6 milyon ton nafta, 1,6 milyon ton təyyarə yanacağı, 4,8 milyon ton az kükürdlü dizel yanacağı, 700 min ton neft koksu, 420 min ton qarışıq ksilen və 160 min ton kükürd istehsal olunacaq.

Deyilənlərdən də göründüyü kimi, Azərbaycan 2018-ci ildə iqtisadi inkişaf sahəsində böyük uğurlara imza atıb. Prezident İlham Əliyev diqqəti ona yönəldib ki, güclü iqtisadiyyat ölkəmizin müstəqil siyasət həyata keçirməsini şərtləndirən amillərdən biri qismində çıxış edir. **“Bu gün Azərbaycan iqtisadi inkişaf baxımından heç kimdən asılı deyil. Azərbaycan iqtisadiyyatı müstəqil iqtisadiyyatdır və bizim müstəqil siyasətimizi gücləndirən amildir. Bu il ümumi daxili məhsul artır, qeyri-neft sektoru artır, sənaye istehsalı artır, qeyri-neft sənaye sektorunda isə artım 9 faizdən çoxdur. İxracımız təxminən 40 faiz artıb. Ölkə iqtisadiyyatına 10 milyard dollar sərmayə qoyulubdur”**, - deyə dövlət başçısı bildirib.

*“Bu gün Azərbaycan iqtisadi inkişaf baxımından heç kimdən asılı deyil. Azərbaycan iqtisadiyyatı müstəqil iqtisadiyyatdır və bizim müstəqil siyasətimizi gücləndirən amildir”*

## MİLLİ İQTİSADİYYATIN UĞURLA İNKİŞAF ETMƏSİNDƏ ÖLKƏDƏ HƏYATA KEÇİRİLƏN İSLAHATLAR MÜHÜM ROL OYNAYIR

Müstəqil Azərbaycanın dünyada böyük maraqla izlənilən nümunəvi inkişaf modelinin ən səciyyəvi cəhətlərindən biri ölkədə genişməzmunlu islahatların həyata keçirilməsi ilə bağlıdır. Respublikamız öz siyasətini zamanın dəyişən tələblərinə məharətlə uzlaşdırır. Belə ki, ölkəmizdə prioritet sahələrin üstün inkişafının təmin edilməsinə hesablanan islahatlar həyata keçirilərkən mütləq qlobal miqyasda meydana çıxan yeni trendlər və çağırışlar nəzərə alınır, eyni zamanda, mövcud daxili potensial və cəmiyyətin sosial sifarişləri əsas götürülür.

Azərbaycan Prezident İlham Əliyevin siyasi qətiyyəti və qəbul etdiyi mühüm qərarlar sayəsində yeni iqtisadi modelə keçidi, transformasiya proseslərini uğurla təmin etməyə nail olub. Qabaqcıl dünya təcrübəsinin, müasir təsərrüfatçılıq metodlarının, yeni təşəbbüslərin tətbiqinə, liberal transformasiyalara uğurlu keçidin təmin olunmasına hesablanan kompleks islahatlar post-neft dövründə milli iqtisadiyyatımızın inkişafı üçün münbit zəmin rolunda çıxış edərək onun qarşısında yeni perspektivlər açıb. 2018-ci ildə də davam etdirilən yeni nəsil iqtisadi islahatların əhatə dairəsinə bank-maliyyə sektorunun sağlamlaşdırılması, büdcəyə vergi daxilolmaları bazasının genişləndirilməsi, gömrük idxal-ixrac əməliyyatlarının sadələşdirilməsi, bütün sahələrdə şəffaflığın təmin edilməsi kimi mühüm istiqamətlər daxildir.

Respublikamızda reallaşdırılan iqtisadi məzmunlu islahatların böyük qismi özəl sektorun imkanlarının daha da genişləndirilməsinə hesablanıb. Dövlətimizin başçısı tərəfindən ölkədə sahibkarlığa dəstək məqsədilə biznes mühitinin bütün sahələri, xüsusilə biznesə başlama, tikinti üçün icazələrin alınması, elektrik təchizatı şəbəkələrinə qoşulma, maliyyə mənbələrinə çıxış imkanlarının artırılması, vergilərin ödənilməsi, əmlakın qeydiyyatı, xarici ticarətin aparılması üzrə əhəmiyyətli irəliləyiş baş verib.

Paralel şəkildə sahibkarlara dəstək mexanizmi getdikcə təkmilləşdirilir. Dövlət başçısının “Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi haqqında” 2018-ci il 31 iyul tarixli Fərmanı ilə Sahibkarlığa Kömək Milli Fondu ləğv edilərək İqtisadiyyat Nazirliyinin tabeliyində Sahibkarlığın İnkişafı Fondu publik hüquqi şəxsi yaradılıb və “Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondunun vəsaitindən istifadə Qaydası” təsdiq edilib. Sənədə əsasən, güzəştli kreditlərdən daha səmərəli istifadə məqsədilə Sahibkarlığın İnkişafı Fondunun kreditlərinin illik faiz dərəcəsi 6 faizdən 5 faizə endirilib. Eyni zamanda, yeni qaydalarda ortahəcmli kreditlərin hədləri dəyişdirilərək 1 000 000 manatadək artırılıb. 2018-ci ildə reallaşdırılan 70-dən çox islahat tədbiri nəticəsində vətəndaşların və sahibkarların məmnunluğunun artırılması, bu sahədə şəffaflığın təmin olunması ilə yanaşı, müxtəlif sektorlar üzrə inzibati prosedurların sayının və xərclərin minimuma endirilməsi, dövlət xidmətlərinin göstərilməsində keyfiyyətin daha da yüksəlməsinə nail olunub. Prezident İlham Əliyev Azərbaycanda həyata keçirilən islahatların yaxşı nəticələr verdiyini məmnunluq hissi ilə nəzərə çatdıraraq vurğulayıb: **“Dünya Bankının “Doing Business” proqramının son hesablamalarında Azərbaycan dünya miqyasında 25-ci yerə layiq görülüb. Yəni, bu, onu göstərir ki, apardığımız islahatlar, şəffaflıq, ciddi iqtisadi islahatlar öz nəticəsini verir və Dünya Bankı bunu yüksək qiymətləndirir”.**

## 2018-Cİ İLDƏ MƏCBURİ KÖÇKÜNLƏRİN, QARABAĞ MÜHARİBƏSİ ƏLİLLƏRİNİN VƏ ŞƏHİD AİLƏLƏRİNİN SOSİAL MÜDAFİƏSİNİN GÜCLƏNDİRİLMƏSİ İSTİQAMƏTİNDƏ TƏDBİRLƏR DAVAM ETDİRİLİB

Azərbaycan sosial dövlətdir. Respublikamızda dinamik iqtisadi inkişafa uyğun olaraq dərinməzmunlu sosial siyasət həyata keçirilir. Son 15 ildə dövlət başçısının təşəbbüsü ilə əhalinin sosial müdafiəsinin gücləndirilməsinə yönəldilən tədbirlərin statistikası kifayət qədər zəngindir və bu istiqamətdə işlər 2018-ci ildə də davam etdirilib.

Respublikamızda aparılan dərinməzmunlu sosial siyasətin xarakterik cəhətlərindən biri ondan ibarətdir ki, ölkədə qayğıya ehtiyacı olan bütün insanlar dövlət tərəfindən dəstəklənirlər. Prezident İlham Əliyev şəhid ailələri, müharibə veteranları və əlillərinə daim xüsusi qayğı ilə yanaşır. O cümlədən şəhid ailələrinin və müharibə əlillərinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində zəruri tədbirlər görülür. Dövlət başçısının 2014-cü il 20 iyun tarixli Sərəncamı Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinin mənzillə təminatı işlərinin gücləndirilməsinə yönəlib. İndiyədək ölkəmizdə şəhid ailələrinə, əlilliyi olanlara 6 mindən çox mənzil verilib. 2018-ci il avqustun 1-də Prezident İlham Əliyevin iştirakı ilə Bakının Qaradağ rayonunun Lökbatan qəsəbəsində Qarabağ, Böyük Vətən müharibələri, Çernobıl əlillərinə və şəhid ailələrinə mənzillərin və avtomobillərin verilməsi mərasimi keçirilib və müvafiq kateqoriyadan olan insanlara və ailələrə 35 mənzil, eləcə də 136 minik avtomobili təqdim edilib. Bu məqamda onu da vurğulamaq yerinə düşər ki, dövlət başçısının ötən il imzaladığı müvafiq Sərəncama əsasən Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə 20,0 (iyirmi) milyon manat ayrılıb. Həmin vəsaitlə müvafiq kateqoriyadan olan ailələr və insanlar üçün mənzillərin alınması təmin olunub.

*“İxracımız təxminən 40 faiz artıb. Ölkə iqtisadiyyatına 10 milyard dollar sərmayə qoyulubdur”*

Eyni zamanda, “Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 aprel tarixli Fərmanına əsasən 1997-ci il avqustun 2-dək Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların vərəsələrinə bu Fərmanla müəyyənləşdirilmiş qaydada 11.000 (on bir min) manat məbləğində birdəfəlik ödəmə verilməsi nəzərdə tutulub. Ümumilikdə, müvafiq kateqoriyadan olan 9531 şəhid hərbi qulluqçunun vərəsələrinin birdəfəlik ödəmə almaq hüququ müəyyən edilib və hazırda proses uğurla davam etdirilir.

Ölkəmizdə həmçinin Prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq qaçqın və məcburi köçkün soydaşlarımızın problemlərinin həlli daim diqqət mərkəzində saxlanılır. Təkcə belə bir faktı vurğulamaq kifayətdir ki, 2004-cü ildən bəri Prezident İlham Əliyev tərəfindən məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsi, yaşayış şəraitinin yaxşılaşdırılması ilə bağlı 55 Fərman və Sərəncam imzalanıb. İndiyədək bu məqsədlə 6 milyard manatdan çox vəsait ayrılıb.

2018-ci ildə Bakı və Sumqayıt şəhərlərində yararsız, qəzalı binalarda yaşayan köçkünlərin yeni mənzillərə köçürülməsi layihəsinin icrası uğurla davam etdirilib. Layihə çərçivəsində birinci mərhələdə ən qəzalı binalarda yaşayan 4 min ailənin köçürülməsi nəzərdə tutulub. Əlamətdar haldır ki, bəhs olunan layihənin icrasına özəl şirkətlər də qoşulub. Ötən il məcburi köçkünlər üçün inşa olunan “Qobu Park” yaşayış kompleksi Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə istifadəyə verildi. Layihənin sifarişçisi “Paşa Holding” şirkətidir. Podratçı şirkət qismində isə “Kristal Abşeron” MTK çıxış edib. Layihə üzrə hər biri 2 bloklu, 9 mərtəbəli, 1026 mənzilli 11 yaşayış binası inşa olunub. Yeni yaşayış kompleksində zəruri infrastruktur obyektləri - 350 yerlik mərasim evi, poçt, tibb, polis məntəqələri və mənzil-istismar idarəsi yaradılıb.

*“Eyni zamanda, beynəlxalq təşkilatlar çərçivəsində Azərbaycan uğurla fəaliyyət göstərmişdir. Biz beynəlxalq aləmdə layiqli yerimizi tuta bilmişik”*

Məcburi köçkün soydaşlarımız Yeni il ərəfəsində də özəl mənzilə sahib olmağın sevincini yaşayıblar. Dekabrın 27-də Sumqayıt şəhərində qaçqın və məcburi köçkün ailələri üçün inşa edilən yaşayış binaları kompleksinin açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər. Xüsusi memarlıq üslubunda və müasir səviyyədə inşa olunan bu kompleks 1005 qaçqın və məcburi köçkün ailəsi üçün nəzərdə tutulub. Ərazisi 4 hektar olan kompleksdə ümumilikdə 12 bina, o cümlədən səkkizmərtəbəli səkkiz, 15 mərtəbəli dörd bina inşa olunub.

Respublikamızda məcburi köçkün soydaşlarımıza və şəhid ailələrinə qayğı siyasəti gələcəkdə də davam etdiriləcək. Bunu nəzərə çatdıran Prezident İlham Əliyev **“Bu il məcburi köçkünlər üçün çox böyük işlər görülüb. 5800 köçkün ailəsi üçün yeni evlər, mənzillər tikilib və onlara təqdim edilib. Bu, son illərdə rekord göstəricidir. Şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə 626 mənzil verilmişdir və biz bu siyasəti gələn il də davam etdirəcəyik”,** - deyə vurğulayıb.

## AZƏRBAYCANIN BEYNƏLXALQ MÖVQEYİ İLDƏN-İLƏ DAHA DA MÖHKƏMLƏNİR

Artıq tarixə dönən 2018-ci il həmçinin müstəqil Azərbaycanın beynəlxalq miqyasda mövqelərinin möhkəmlənməsi ilə əlamətdar olub. Məlumdur ki, milli maraqlara əsaslanan və ölkənin hərtərəfli inkişafını hədəfləyən məqsədyönlü daxili siyasət həyata keçirən Azərbaycan, eyni zamanda, çoxvektorlu fəal xarici siyasət kursuna malikdir. Xarici siyasətində ədalət prinsipinə söykənməsi və daim xoş məram nümayiş etdirməsi beynəlxalq miqyasda ölkəmizə böyük nüfuz qazandırıb. Təsadüfi deyil ki, son vaxtlarda respublikamız bir sıra mötəbər beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilib. Eyni zamanda, ölkəmizin əsas problemi olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılan danışıqlarda ölkəmizin mövqeyi beynəlxalq ictimaiyyət tərəfindən daha qətiyyətlə dəstəklənir. Bütün bunlar onu təsdiqləyir ki, Azərbaycan beynəlxalq aləmdə özünün layiq olduğu yeri tutub. Bunu nəzərə çatdıran Prezident İlham Əliyev deyib: **“Bizim beynəlxalq mövqelərimiz daha da möhkəmlənib. Mən bu il 16 xarici səfər etmişəm. Ölkəmizə 16 dövlət və hökumət başçısı səfər etmişdir və bu, ikitərəfli əlaqələrimizin nə qədər geniş olduğunu göstərir. Eyni zamanda, beynəlxalq təşkilatlar çərçivəsində Azərbaycan uğurla fəaliyyət göstərmişdir. Biz beynəlxalq aləmdə layiqli yerimizi tuta bilmişik”.**

Azərbaycan dövləti xarici siyasət kursunda regional əməkdaşlıq platformalarının yaradılmasına və praktiki müstəvidə onların səmərəli fəaliyyətinin təmin edilməsinə xüsusi səy göstərir. Bu gün Azərbaycan regionda işğalçı Ermənistan istisna olmaqla bütün qonşu dövlətlərlə strateji tərəfdaşlıq münasibətlərini uğurla inkişaf etdirir və bundan bütün tərəflər fayda götürür.

Ölkədə Prezident İlham Əliyevin siyasi iradəsi əsasında həyata keçirilən məqsədyönlü siyasətin məntiqi nəticəsi olaraq Cənubi Qafqaz coğrafiyasının lider dövləti səviyyəsinə yüksələn Azərbaycanın Avropa ölkələri üçün də önəmi getdikcə artır. 2018-ci ildə Azərbaycanla Avropa İttifaqı arasında Tərəfdaşlıq Prioritetləri sənədinin paraflanması əməkdaşlığın gələcək inkişafı üçün çox önəmlidir. Bəhs olunan sənədin paraflanması Azərbaycanın Avropa ilə əlaqələrə böyük əhəmiyyət verdiyini bir daha təsdiqləyir. Sənədin önəminə diqqət çəkən Prezident İlham Əliyev **“Biz Avropa İttifaqı ilə əlaqələrimizi daha da möhkəmləndirmişik. Bu il Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış Tərəfdaşlıq Prioritetləri sənədi bu münasibətlərin nə qədər yüksək səviyyədə olmasının təzahürüdür. Bu sənəddə ölkəmizin ərazi bütövlüyü, suverenliyi, sərhədlərimizin toxunulmazlığı haqqında çox aydın fikirlər öz əksini tapıb və bir daha onu göstərir ki, Avropa İttifaqı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ məsələsinin həllində düzgün mövqedədir”,** - deyə vurğulayıb.

Azərbaycan dünyada İslam həmrəyliyinin möhkəmləndirilməsinə davamlı olaraq səy göstərir. Eyni zamanda, respublikamızın dünyada İslam həmrəyliyinin möhkəmlənməsinə verdiyi töhfələr müsəlman ölkələri tərəfindən yüksək dəyərləndirilir. Təsadüfi deyil ki, 2018-ci il Azərbaycanın daha bir şəhəri, Bakıdan sonra bu dəfə Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı elan olunub. Bu, bütün müsəlman aləminin Azərbaycana olan böyük hörmətinin təzahürüdür.

Onu da qeyd edək ki, 2018-ci il həm də ölkəmizdə növbəti prezident seçkilərinin keçirilməsi ilə yadda qaldı. Və bundan əvvəlki seçkilərdə olduğu kimi bu seçkilərdə də xalqımız cənab İlham Əliyevə yüksək etimad göstərdi, Onun fəaliyyətinə yüksək qiymət verdi. Sözügedən təbrikində bu məqama da toxunan dövlət başçısı **“Mən son 15 il ərzində Prezident kimi çalışmışam ki, xalqa ləyaqətlə xidmət edim. Bundan sonra da çalışacağam ki, Azərbaycanın inkişafı, Azərbaycanın gücləndirilməsi, xalqın rifahının artması üçün əlimdən gələni əsirgəməyim. Mənim bir amalım var: güclü Azərbaycan dövləti qurmaq və xalqa ləyaqətlə xidmət etmək”,** - deyə vurğulayıb.

**Mübariz ABDULLAYEV**

# Xalq Cümhuriyyətinin ilk paytaxtına "Azərbaycan Xalq Cümhuriyyəti İli"ndə dəyərli töhfə

*Gəncənin tarixi adının özünə qaytarılmasının növbəti ildönümündə Bakı-Gəncə sürət qatarının ilk reysi həyata keçirilib*






Artıq Azərbaycan üçün uğurlarla zəngin daha bir ili başa vurduq. Ötən illər kimi, 2018-ci il də ölkəmizdə bütün sahələrdə inkişafın davamlı olması, həmçinin yeni nailiyyətlərin əldə edilməsi ilə yadda qaldı. Başa vurduğumuz ili digərlərindən fərqləndirən əsas məqam isə 2018-ci ilin dövlətçilik tariximizə "Azərbaycan Xalq Cümhuriyyəti İli" kimi düşməsi oldu. Məhz ötən il müsəlman Şərqində ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü qeyd olundu. Məlum olduğu kimi, Prezident İlham Əliyevin 16 may 2017-ci il tarixli "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" Sərəncamına əsasən Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyi respublikada dövlət səviyyəsində qeyd edildi, ilboyu ölkə daxilində və xaricdə bu tarixi hadisəyə həsr edilmiş silsilə tədbirlər keçirildi, həmçinin dövlət başçısının 10 yanvar 2018-ci il tarixli Sərəncamı ilə 2018-ci il Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edildi. Beləliklə, Xalq Cümhuriyyətinin elan olunmasının 100-cü ildönümü ilə yanaşı, Azərbaycan parlamentinin, Azərbaycan Ordusunun yaradılmasının, həmçinin Bakının işğaldan azad olunmasının 100-cü ildönümünün də qeyd olunduğu 2018-ci il Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin bir sıra yerli və beynəlxalq əhəmiyyətli layihələrə imza atması, yeni uğurların qazanılması ilə də yadda qaldı. Elə ilin sonuna iki gün qalmış Bakı-Gəncə sürət qatarının ilk reysinin həyata keçirilməsini də həmin uğurlardan biri və Xalq Cümhuriyyətinin ilk paytaxtına - Gəncəyə "Azərbaycan Xalq Cümhuriyyəti İli"ndə dəyərli töhfə kimi qiymətləndirmək olar.








## GƏLƏCƏYƏ YOL AÇAN QATAR

Qeyd edək ki, "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanovun gələcəyə yol açan qatar kimi dəyərləndirdiyi Bakı-Gəncə sürət qatarının ilk reysi dekabrın 29-da reallaşdı. İlk sərnişinlər arasında millət vəkillərinin, "Azərbaycan Dəmir Yolları" Qapalı Səmdar Cəmiyyətinin rəhbər heyətinin, ölkənin tanınmış müğənnilərinin və KİV təmsilçilərinin də olduğu qatar saat 09:00-da Bakıdan yola düşdü. Qatar yola düşməzdən əvvəl sərnişinlərə və həmin qatarda fəaliyyət göstərəcək əməkdaşlara uğurlar arzulayan, onları qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə təbrik edən "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov işğal altında olan torpaqlarımızın azad ediləcəyini və yeni qatarlarla Qarabağa səfərlər edəcəyimizə inandığını vurğuladı.

Məlumat üçün bildirək ki, Bakı-Gəncə sürət qatarı hər ayın cüt günləri Bakıdan, tək günləri isə Gəncə şəhərindən saat 09:00-da yola düşəcək. Qatarın Biləcəri, Yevlax və Goran stansiyalarında dayanacaqları mövcuddur. Ən müasir tələblərə cavab verən dörd vaqondan ibarət qatarda birinci klass (9 yer), biznes (62 yer) və standart (296 yer) olmaqla cəmi 367 yer var. Gediş biletləri dəmir yolu kassalarında və internet saytında onlayn satılır.







## "BU SÜRƏT QATARININ İSTİFADƏYƏ VERİLMƏSİ PREZİDENT İLHAM ƏLİYEVİN GƏNCƏYƏ OLAN DİQQƏTİNİN NÖVBƏTİ BARİZ NÜMUNƏSİDİR"

Qeyd edək ki, 4 saata yaxın bir müddət ərzində Gəncəyə çatan qatarın bu qədim diyarda izdihamlı qarşılanma mərasimi oldu. Əllərində Azərbaycan bayraqlarını tutmuş gəncəlilər bu günün əlamətdar gün kimi nəinki şəhərin, eyni zamanda, ölkəmizin tarixinə yazılacağını bildirirdilər.

Elə mərasimdə çıxış edən Gəncə şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov da dedi ki, bu, yalnız Gəncə şəhərinin deyil, bütövlükdə ölkəmizin həyatında əlamətdar hadisədir: **"Bu sürət qatarının istifadəyə verilməsi Prezident İlham Əliyevin Gəncəyə olan diqqətinin növbəti bariz nümunəsidir. Gəncə Qafqazın ən gözəl şəhərlərindən biridir. Dünyanın ən yüksək standartlarına cavab verən beynəlxalq hava limanı, yeni yollar, təhsil ocaqları Gəncədəki inkişafın göstəricisidir. Bu gün isə onların sırasına biri də əlavə olundu. Biz çox sevinirik ki, belə sürət qatarı məhz Gəncə istiqamətində istifadəyə verilib".**

Gəncəlilər qarşısında çıxış edən "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov bu sürət qatarını Gəncəyə yox, gələcəyə yol açan qatar kimi səciyyələndirdi: **"İnkişafa, uğura gedən bu qatarın istifadəyə verilməsi Prezident İlham Əliyevin uğurlu siyasətinin nəticəsində reallaşıb. Azərbaycan dəmir yolları daha da inkişaf edəcək, ilk olaraq Gəncəyə gedən sürət qatarı gələcəkdə Ankaraya qədər uzanacaq".**

Daha sonra çıxış edən Milli Məclisin deputatı Musa Quliyev öncə Bakı-Gəncə sürət qatarının ilk reysinin Gəncə üçün əlamətdar tarixin, bu qədim diyarın adının özünə qaytarılmasının növbəti ildönümü ərəfəsində gerçəkləşdiyini dedi. Xatırladaq ki, tarix boyu bir neçə dəfə adı dəyişdirilən, SSRİ dövründə 1935-ci ildən Kirovabad adlandırılan Gəncənin tarixi adı 1989-cu il dekabrın 30-da özünə qaytarılıb.

Millət vəkili, eyni zamanda, bu uğurlu layihənin reallaşdırılmasının əhəmiyyətindən danışdı, xalqımızın iqtisadi sahədə daha böyük uğurlar əldə edəcəyinə inandığını söylədi.

Mərasimdə həmçinin Gəncə hadisələrində şəhid olmuş polis polkovniki İlqar Balakişiyevin oğlu İlham Balakişiyev də çıxış etdi. "Azərbaycan Dəmir Yolları" QSC-nin əməkdaşı olan İlham Balakişiyev bu hadisənin nəqliyyat tarixində böyük əhəmiyyətə malik olduğunu dedi.

Tədbir konsert proqramı ilə davam etdi.













## AZƏRBAYCAN DƏMİR YOLLARI DAHA DA İNKİŞAF EDƏCƏK

Sonda vurğulamaq yerinə düşər ki, Bakı-Gəncə sürət qatarının istifadəyə verilməsinin timsalında 2018-ci ili uğurla başa vuran, Prezident İlham Əliyevin diqqət və qayğısı ilə əhatə olunan, həmçinin ölkəmizin inkişafından güc alan Azərbaycan Dəmir Yolları növbəti illərdə yeni layihələri reallaşdırmağı planlaşdırır. Elə "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanovun qatarda Azərbaycan dəmir yollarının yaxın gələcək üçün planları barədə jurnalistlərə verdiyi açıqlama da bunu bir daha təsdiqləyir. Həmin açıqlamasında növbəti sürət qatarının Qəbələ və Yalamaya olacağını deyən sədr bildirdi ki, ilkin olaraq Bakı-Qəbələ sürət qatarının istifadəyə verilməsi, 2019-cu ilin axırına qədər bu sürət qatarının işə düşməsi nəzədə tutulub. Eyni zamanda, artıq Bakı-Yalama dəmir yolunun tikintisi üçün tender elan olunub və tikintinin iki il müddətinə başa çatması nəzərdə tutulub. Gələn ilin ortalarında isə Bakıətrafı dəmir yolunda bir neçə stansiya istifadəyə veriləcək. Belə ki, Bakıətrafı dəmir yolunun ikinci hissəsinin istifadəyə verilməsi üzrə işlər davam etdirilir. 2019-cu ilin ortalarında "Koroğlu" metro stansiyasının yaxınlığından keçməklə Bakıxanov, Sabunçu, Zabrat-1, Zabrat-2, Məmmədli, Fatmayı, Novxanı, Sumqayıt stansiyalarını birləşdirən dəmir yolunun açılışı olacaq. Jurnalistlərə açıqlamasında Bakı-Tbilisi-Qars sərnişin qatarının 2019-cu ildə işə düşəcəyini də deyən "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri bildirdi ki, "Stadler Rail Group" şirkətindən sərnişin qatarlarının vaqonları 2019-cu ilin fevral-mart aylarında təhvil alınmalıdır. 10 sərnişin vaqonu təhvil verilən kimi Bakı-Tbilisi-Qars dəmir yolu ilə sərnişin qatarı fəaliyyətə başlayacaq. Bundan başqa, dəmir yolunda bir neçə beynəlxalq istiqamətə reyslər də açıla bilər. Bir sözlə, Cavid Qurbanovun da vurğuladığı kimi, həm Prezident İlham Əliyevin diqqət və qayğısı, həm də nəzərdə tutulan işlər onu deməyə əsas verir ki, Azərbaycan dəmir yolları daha da inkişaf edəcək.

**Nadir AZƏRİ**

**Bakı-Gəncə-Bakı**

# 2018-ci il Azərbaycan üçün mühüm uğurlarla və əlamətdar hadisələrlə zəngin oldu



***Milli Məclisin deputatı, akademik Nizami Cəfərov www.yap.org.az saytına müsahibə verib:***

**- Nizami müəllim, artıq 2018-ci il tarixə çevrildi. Sizcə, ötən il ölkəmiz üçün hansı səciyyəvi cəhətləri ilə əlamətdar oldu?**

- 2018-ci il Azərbaycan üçün mühüm uğurlarla və bir sıra əlamətdar hadisələrlə zəngin olub. Yola saldığımız il ölkəmizin tarixinə daha bir uğurlu il kimi daxil oldu. Azərbaycan başa çatan 2018-ci ildə siyasi və beynəlxalq mövqelərini daha da möhkəmləndirdi, mühüm uğurlar qazandı. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan həyatın bütün sahələrində yeni nailiyyətlərə imza atıb, qarşıya qoyulan hədəflərə doğru inamla irəliləyib. Eyni zamanda, dünya azərbaycanlıları həmrəylik nümayiş etdiriblər. Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbrikində bu məqamları geniş şəkildə vurğuladı.

2018-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin, Silahlı Qüvvələrimizin, parlamentimizin yaradılmasının 100 illik, Ümummilli liderimiz Heydər Əliyevin 95 illik yubileyləri geniş şəkildə qeyd olundu. Xüsusilə qeyd edim ki, ölkəmizdə növbəti prezident seçkiləri keçirildi, Azərbaycan seçicilərinin böyük əksəriyyəti səsvermədə iştirak edərək cənab İlham Əliyevə yenidən etimad göstərdi. 2018-ci il aprelin 11-də keçirilən prezident seçkilərinin nəticələri Azərbaycanda dövlət başçısı İlham Əliyevin nüfuzunun kifayət qədər yüksək olduğunu bir daha təsdiqlədi. Bu seçkilərdə xalq öz iradəsini növbəti dəfə ortaya qoyaraq, son 15 ildə Azərbaycanı inamla idarə edən, ölkəmizə misilsiz uğurlar qazandıran cənab İlham Əliyevə səs verdi və Onu növbəti 7 il üçün Azərbaycanın dövlət başçısı seçdi. Bu seçim xalqın öz liderinə sonsuz inamının ifadəsi idi.

Bundan başqa, ötən il Azərbaycan Silahlı Qüvvələrinin 100 illik yubileyinə, o cümlədən Bakının azad edilməsinin 100 illiyinə həsr olunmuş möhtəşəm paradlar, eyni zamanda, Naxçıvanda 11 min hektara yaxın ərazinin və Şərurun Günnüt kəndinin işğaldan azad edilməsi ordumuzun istənilən vəzifəni icra etməyə qadir olduğunu bir daha nümayiş etdirdi.

Həmçinin 2018-ci ildə siyasi, iqtisadi, nəqliyyat, enerji, sosial, humanitar, mədəniyyət, idman və digər sahələrdə tarixi əhəmiyyətə malik möhtəşəm nailiyyətlər əldə edildi. Məsələn, iqtisadi sahədə TANAP və STAR layihələrinin həyata vəsiqə alması çox böyük iqtisadi hadisədir. Bu layihələr Azərbaycanla Türkiyəni nəinki regionda, bütövlükdə dünyada daha da gücləndirəcək. Yəni 2018-ci il Azərbaycan tarixində dərin və konkret nəticələr verən iqtisadi islahatlar ili kimi qalacaq. Dünya Bankının "Doing Business 2019" hesabatında Azərbaycanın ötən illə müqayisədə 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşması da buna əyani sübutdur.

**- Azərbaycan həmçinin nüfuzlu beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilib. Bu baxımdan, ölkəmizin humanitar əməkdaşlıq mərkəzinə çevrilməsinin əhəmiyyəti nədən ibarətdir?**

- Məlumdur ki, Azərbaycan Cənubi Qafqaz regionunun lider dövlətidir. Yüksək beynəlxalq nüfuza malik olan Azərbaycanın daxili və xarici siyasət kursunu, dünya siyasi arenasında yeri və rolunu xarakterizə edərkən ölkəmizin beynəlxalq dialoq və əməkdaşlıq məkanı kimi çıxış etməsini də qeyd etmək lazımdır. Ümumiyyətlə, regionun siyasi, iqtisadi və humanitar mərkəzi kimi çıxış edən respublikamız sivilizasiyalararası dialoqun inkişafına əhəmiyyətli töhfələr verməklə yanaşı, mühüm siyasi, iqtisadi, mədəni və humanitar xarakterli beynəlxalq tədbirlərə ev sahibliyi edir. Bir çox nüfuzlu beynəlxalq tədbirlərin respublikamızda keçirilməsi Azərbaycanın beynəlxalq inteqrasiya prosesində uğurla iştirak etməsindən xəbər verir. Beləliklə, Azərbaycan özünün çoxşaxəli və mütərəqqi xarici siyasət kursu ilə müasir dünyanın, xalqlararası əməkdaşlığın inkişafında və sivilizasiyalararası dialoqda mühüm rol oynayır.

Dünyanın sivilizasiyalararası və dinlərarası dialoq mərkəzlərindən biri kimi tanınan Azərbaycan ötən il bir sıra mötəbər beynəlxalq tədbirlərə uğurla ev sahibliyi etdi. Bu sırada ən yüksək səviyyədə keçirilmiş VI Bakı Beynəlxalq Humanitar Forumunu, VI Qlobal Bakı Forumunu, Qoşulmama Hərəkatının nazirlər konfransını, Dünya Limanlar Konfransını və digər tədbirləri qeyd etmək olar. Bu il rəsmi Bakının təşəbbüsü ilə başlanan, mədəniyyətlər arasında dialoq və əməkdaşlığın inkişafına xidmət edən "Bakı Prosesi"nin 10 ili tamam oldu. Azərbaycanın əməkdaşlıq üçün nadir platforma olan "Bakı Prosesi"ni uğurla davam etdirməsi, ölkəmizdə Dayanıqlı İnkişaf Məqsədləri üzrə vəzifələrin icrası istiqamətində görülən işlər beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir. Azərbaycanda ilk dəfə Nəsimi - şeir, incəsənət və mənəviyyat festivalı keçirildi. Bütün bu tədbirlər isə davamlı xarakter daşıyır.

**- Ötən il Azərbaycan tolerantlıq və multikulturalizm ənənələrinin təbliği baxımından da önəmli tədbirlər reallaşdırdı...**

- Azərbaycan dünyaya yeni və daha mütərəqqi dəyərlər təqdim etməkdədir. Dünyada sivilizasiyalararası qarşıdurmaların, müxtəlif humanitar böhranların, dini və milli-etnik müstəvidə kataklizmlərin yaşandığı bir dövrdə Azərbaycan həm sivilizasiyalararası dialoqun təşviqi və inkişafına mühüm töhfələr verir, həm də sabitliyi, sülhpərvər və tərəqqipərvər mövqeyi ilə nümunə kimi çıxış edir.

Ölkəmizdə multikulturalizmin həm dövlət siyasəti, həm də cəmiyyətdə həyat tərzi olması beynəlxalq miqyasda da olduqca yüksək qiymətləndirilir. Ümumiyyətlə, Azərbaycan elə bir ölkədir ki, burada milli-dini-irqi müxtəliflik insanlar arasında fərq yaradan, kimlərəsə üstünlük verən amil kimi çıxış etmir. Əksinə, burada tolerantlıq, milli-dini-irqi müxtəliflik cəmiyyətin əsas və üstün dəyəri kimi təqdim olunur. Azərbaycanda xalqların, milli və dini icmaların heç bir fərq qoyulmadan bərabər yaşamasına, sıx inteqrasiya etməsinə həm dövlət güclü siyasi iradə nümayiş etdirir, həm də cəmiyyətdə buna böyük istək var. Təsadüfi deyil ki, bu gün ölkəmizdə mövcud olan milli həmrəylik, sabitlik və tolerantlıq mühiti məhz bu dəyərlərə əsaslanır.

Tolerantlıq mərkəzi və multikulturalizm diyarı kimi tanınan Azərbaycan həm də İslam həmrəyliyinə əvəzsiz töhfələr verir. Şərq və Qərb sivilizasiyalarının harmonik şəkildə qovuşduğu Azərbaycanda müxtəlif dövrlərə və mədəniyyətlərə, o cümlədən İslam mədəniyyətinə məxsus tarixi abidələr, maddi mədəniyyət nümunələri, mənəvi irs dövlət səviyyəsində qorunur, himayə olunur. Eyni zamanda, Azərbaycan müsəlman ölkələri arasında - İslam aləmində nüfuzlu dövlət kimi tanınır. Məhz bunun qanunauyğun nəticəsidir ki, respublikamız müsəlman ölkələri ilə ikitərəfli və çoxtərəfli praqmatik əlaqələrə malikdir və münasibətlərin inkişafı, bütövlükdə, İslam coğrafiyasında həmrəyliyin təmin olunmasına xidmət edir. Mədəniyyət, humanitar sahələrdə də Azərbaycan İslam ölkələri arasında əlaqələrin genişlənməsində mühüm rol oynayır. Azərbaycan İslam Əməkdaşlıq Təşkilatı, İSESCO kimi aparıcı təşkilatların fəal üzvüdür, onların nüfuzunun yüksəldilməsinə, İslam mədəniyyətinin inkişaf etdirilməsi və dünyada yayılması işinə öz dəyərli töhfələrini verir.

**- Nizami müəllim, 2019-cu ildən gözləntiləriniz nədir?**

- İnanıram ki, yeni başlayan 2019-cu il də ölkəmiz üçün uğurlu və düşərli il olacaq. Xalqımızın əsas arzusu torpaqlarımızın, Qarabağımızın işğaldan azad edilməsi, məcburi köçkünlərin doğma yurdlarına qayıtmasıdır. Prezident İlham Əliyevin qətiyyətli siyasəti nəticəsində bu müqəddəs amala, arzumuza çatacağımıza inanıram.

Eyni zamanda, 2019-cu ildə bizi bir sıra əlamətdar hadisələr gözləyir. Qlobal nüfuzlu tədbirlərin keçirildiyi məkana çevrilən Bakıda UNESCO Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası keçiriləcək. 2019-cu ildə Bakı Dövlət Universitetinin təsis olunmasının 100, görkəmli Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin anadan olmasının 650 illiyi qeyd olunacaq. Bu ilin dekabr ayında respublikamızda bələdiyyə seçkiləri keçiriləcək. Yəni bu kimi nüfuzlu tədbirlərin sayı daha çox olacaq. Mən, sadəcə, bir neçəsini qeyd etdim.

Bilirsiniz ki, bu gün Azərbaycan xalqı Prezident İlham Əliyevi siyasi sabitliyin, əmin-amanlığın, sülhün qarantı hesab edir. Çünki xalq Azərbaycanı parlaq sabahlara doğru aparan dövlət başçımızın siyasi kursunu birmənalı şəkildə dəstəkləyir. Ölkəmizdə sabitliyi təmin edən başlıca amil isə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu daxili və xarici siyasət kursu, eləcə də xalq-iqtidar birliyidir. Bütün bunlar qarşıdakı dövrün də ölkəmiz üçün uğurlu olacağına əminlik yaradır. Ona görə də Azərbaycan xalqı daim gələcəyə nikbinliklə baxır.

# Azərbaycan Prezidentinin xarici siyasətində ərazi bütövlüyümüzün təmin edilməsi prioritet istiqamətdir

*Dağlıq Qarabağ heç vaxt Azərbaycanın suverenliyindən kənarda heç bir status almayacaq. Heç vaxt Azərbaycan xalqı və dövləti imkan verməyəcək ki, onun əzəli, tarixi, hüquqi torpağı ondan ayrılsın... Azərbaycanın ərazi bütövlüyü istənilən digər ölkənin ərazi bütövlüyü kimi eyni dəyərə malikdir... Azərbaycan bütün dünya tərəfindən tanınan öz ərazi bütövlüyünü bərpa edəcəkdir.*

**İlham Əliyev**

**Azərbaycan Respublikasının Prezidenti**

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ağır nəticələrinin aradan qaldırılması və nizama salınması Ümummilli lider Heydər Əliyevin xarici siyasət fəaliyyətində mühüm yer tutmuşdur. Bu məqsədlə 1993-cü ilin ikinci yarısından başlayaraq Ümummilli lider respublikamızın təhlükəsizlik problemlərini, xüsusilə Ermənistanın ərazi iddiaları və hərbi təcavüzü məsələsini beynəlxalq aləmə çıxararaq regionda sülhün bərqərar olması üçün nüfuzlu beynəlxalq təşkilatların təsirini artırmağa çalışmışdır. Ulu öndər Heydər Əliyevin münaqişənin sülh yolu ilə həll edilməsi üçün ən yüksək səviyyədə dövlət başçıları və nümayəndə heyətləri ilə ikitərəfli, çoxtərəfli görüşlərdə, ATƏT-in Zirvə toplantılarında, Minsk qrupunun həmsədrləri ilə aparılan müzakirələrdə, eyni zamanda, Ermənistan prezidenti ilə birbaşa danışıqlarda göstərdiyi səylər dövlət başçısının apardığı ardıcıl və məqsədyönlü siyasətinin mühüm tərkib hissəsini təşkil etmişdir.

Ümummilli lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınmasına xüsusi diqqət yetirərək bu məsələdə yalnız respublikamızın milli və dövlətçilik maraqlarını daim üstün tutduğunu nümayiş etdirmişdir. Azərbaycan Prezidenti bütün xarici səfərlərdə, eləcə də Bakıda keçirdiyi çoxsaylı görüşlərdə Ermənistanın hərbi təcavüzü məsələsini daim önə çəkərək Azərbaycan xalqının öz torpaqlarının işğalı ilə heç zaman razılaşmayacağını, ehtiyac yarandığı halda, hərbi əməliyyatların başlanmasına qərar verəcəyini vurğulamışdır. Bununla yanaşı, Azərbaycanın dövlət başçısı münaqişənin dinc vasitələrlə nizama salınmasının tərəfdarı olduğunu bildirmiş, beynəlxalq təşkilatların bu sahədə səylərini gücləndirməsinin zəruriliyini bəyan etmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev danışıqlar masası üzərində bütün işğal edilmiş Azərbaycan torpaqlarının qaytarılması və məcburi köçkünlərin öz doğma ev-eşiklərinə qayıdışı məsələlərinin mövcudluğunu bildirib. Bununla yanaşı, Ermənistanın danışıqlar prosesini süni şəkildə uzatdığını və bu taktikanın heç bir perspektivinin olmadığını söyləyən dövlət başçısı İlham Əliyev nə bu gün, nə on il, nə də yüz il sonra Dağlıq Qarabağın müstəqil olmayacağını vurğulayıb. Eyni zamanda, Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycanın mövqeyi birmənalıdır və biz bütün təzyiqlərə baxmayaraq sonadək öz mövqeyimizi müdafiə edəcəyik.

Buna baxmayaraq, Ermənistan tərəfi ermənilərin öz müqəddəratını təyinetmə prinsipini əsas gətirərək Dağlıq Qarabağın müstəqil dövlət kimi tanınmasına çalışır. Ancaq ermənilər öz müqəddəratını təyinetmə hüququndan hələ XX əsrin əvvəllərində ən yüksək səviyyədə istifadə edərək özlərinin müstəqil dövlətini - Ermənistan Respublikasını yaratmışlar. Dövlət başçısı İlham Əliyev Öz çıxışlarında dəfələrlə bəyan edib ki, bugünkü Ermənistan dövləti 1918-ci ildə qurularkən tarixi Azərbaycan torpaqlarından İrəvan xanlığı və Zəngəzur mahalı ərazilərində yaradılıb.

Dağlıq Qarabağ bölgəsinin erməniləri isə Azərbaycanda yaşayan milli azlıqlardan biridirlər. Beynəlxalq hüquq normalarına görə, milli azlıqlar öz müqəddəratlarını təyin edə bilərlər. Lakin bu, müstəqillik formasında ola bilməz. Çünki müstəqil dövlətin ərazisində yaşayan milli azlıqların belə hüquqları yoxdur. Eyni zamanda, xalqların öz müqəddəratını təyinetmə məsələsi beynəlxalq hüququn əsas prinsiplərindən olan ərazi bütövlüyü prinsipini pozmamalı, bu prinsiplə ziddiyyət təşkil etməməlidir. Bu baxımdan, ermənilərin öz müqəddəratını təyinetmə hüququnu bəhanə etməsi beynəlxalq hüquq normalarının, xüsusilə, dövlətlərin suveren bərabərliyi, zor işlətməmək və zor işlətməklə hədələməmək, sərhədlərin toxunulmazlığı, dövlətlərin ərazi bütövlüyü, mübahisələri dinc yolla nizama salmaq və başqa dövlətlərin daxili işlərinə qarışmamaq və beynəlxalq hüquqi öhdəlikləri vicdanla yerinə yetirmək kimi ATƏT-in Helsinki prinsiplərinin kobud şəkildə pozulması deməkdir.

Dağlıq Qarabağa yalnız Azərbaycanın tərkibində hər hansı bir status verilə bilər. Lakin bu, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində mümkündür. Bu prinsipdən kənarda heç bir məsələnin həll oluna bilməyəcəyini bildirən dövlət başçısı Azərbaycanın bununla əlaqədar öz prinsipial mövqeyindən bir addım belə geri çəkilməyəcəyini bəyan edib. Bundan əlavə, Ermənistan münaqişənin nizama salınması üçün aparılan danışıqlarda Dağlıq Qarabağın erməni icmasının tərəf kimi iştirakının təmin olunmasını istəyir. Bu səbəbdən Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə bəyan etmişdir ki, Azərbaycan torpağında ikinci erməni dövlətinin yaradılmasına Azərbaycan dövləti və xalqı heç vaxt imkan verməyəcək.

Artıq 26 ildən artıqdır ki, təcavüzkar Ermənistan aparılan danışıqlar prosesində həmişə qeyri-konstruktiv mövqedən çıxış edərək hər dəfə bu prosesi süni surətdə uzatmağa çalışır. Azərbaycan Prezidenti bu taktikanın heç bir perspektivinin olmadığını bildirərək qeyd etmişdir ki, ilk növbədə, ermənilər Dağlıq Qarabağ ətrafında işğal etdikləri əraziləri mərhələli şəkildə azad etməli, məcburi köçkünlər öz doğma yurdlarına qayıtmalıdırlar. Bununla yanaşı, dövlət başçısı İlham Əliyev bəyan etmişdir ki, Dağlıq Qarabağın azərbaycanlı əhalisi öz doğma yurdlarına, o cümlədən Şuşaya qayıtdıqdan sonra status məsələsi müzakirə oluna bilər. Heç şübhəsiz ki, bütün bunlar Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini tapmalıdır. Prezident İlham Əliyev qeyd etmişdir ki, gələcəkdə Dağlıq Qarabağın azərbaycanlı və erməni icmaları yüksək muxtariyyət şəraitində, Azərbaycan dövlətinin tərkibində yaşamalıdırlar.

Münaqişənin nizama salınmasında Azərbaycanın tutduğu mövqe birmənalıdır. Problem yalnız Azərbaycanın ərazi bütövlüyü və ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində həllini tapmalıdır. Bu mövqe beynəlxalq hüquq normaları və prinsipləri, BMT Nizamnaməsi, Helsinki Yekun Aktı və münaqişənin nizamlanması istiqamətində qəbul edilmiş çoxsaylı beynəlxalq sənədlərə əsaslanır. Eyni zamanda, münaqişənin dinc vasitələrlə nizama salınması istiqamətində bütün beynəlxalq təşkilatların qəbul etdiyi sənədlər Azərbaycanın mövqeyinin bir daha gücləndirilməsi və məsələnin beynəlxalq hüquq prinsipləri əsasında həllinin təsdiqlənməsi deməkdir. Bu baxımdan BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamə, ATƏT, Avropa Şurası və İslam Əməkdaşlıq Təşkilatının qərarları da əhəmiyyətlidir və ölkəmizin ədalətli mövqeyinin beynəlxalq səviyyədə müdafiəsi üçün hüquqi əsasdır.

Bununla yanaşı, 2016-cı il aprelin 2-dən 5-dək davam edən Azərbaycan ordusunun uğurlu əks-hücum əməliyyatları ölkəmizə hərbi-strateji nöqteyi-nəzərdən çox böyük üstünlüklər verdi. İlk növbədə, Azərbaycan çox mühüm psixoloji qələbə qazandı. Azərbaycan Ordusu düşmənə sarsıdıcı zərbələr endirdi və Qarabağın şimal və cənub hissələrində çox böyük strateji əhəmiyyətə malik yüksəklikləri azad etdi. Bununla da Azərbaycan öz torpaqlarını azad etmək bacarığını, potensialını, döyüş əzmini nümayiş etdirdi. Nəticədə, 4 günlük döyüşlərin beynəlxalq əks-sədası da dərhal eşidildi və Ermənistanın Azərbaycan torpaqlarının 20 faizini işğal altında saxlaması bir daha bütün dünyaya xatırladıldı. 2018-ci ilin may ayında isə Naxçıvan Muxtar Respublikasının 11 min hektardan çox ərazisi, o cümlədən Şərur rayonunun Günnüt kəndi düşməndən azad edilmiş, dövlət sərhədi boyunca əlverişli yüksəkliklər ələ keçirilmiş, Yerevan-Gorus-Laçın yolu nəzarətə götürülmüşdür.

Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbrikində bir daha bildirdi ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli işində biz prinsipial mövqeyimizdə qalırıq: **"Bizim mövqeyimiz haqq-ədalət mövqeyidir. Bizim mövqeyimiz beynəlxalq hüququn norma və prinsiplərinə tam uyğundur. Dağlıq Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Bütün dünya ölkəmizin ərazi bütövlüyünü tanıyır. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. BMT Təhlükəsizlik Şurasının qətnamələri tam icra edilməlidir, işğalçı qüvvələr qeyd-şərtsiz bizim torpaqlarımızdan çıxarılmalıdır".**



**Elçin ƏHMƏDOV,**

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, siyasi elmlər doktoru, "Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin sədr müavini**

Dövlət başçısı İlham Əliyev münaqişənin həlli prosesində Azərbaycanın 2018-ci ildə çox ciddi mövqelərə malik olduğunu, Ermənistanda 20 il ərzində hakimiyyəti zəbt etmiş kriminal, rüşvətxor, xunta rejiminin çökdüyünü bildirərək demişdir: **"... Bu, Ermənistanın Azərbaycana qarşı apardığı işğalçı siyasətin tam iflasıdır. Onu da deyə bilərəm ki, bizim Ermənistana qarşı apardığımız çox düşünülmüş, məqsədyönlü və prinsipial siyasətimiz öz bəhrəsini verdi. Biz Ermənistanı bütün regional və beynəlxalq layihələrdən təcrid edə bilmişik, Ermənistan iqtisadiyyatının çökməsində bizim payımız da kifayət qədər böyükdür".**

Bununla yanaşı, Prezident İlham Əliyev bizim güclü hərbi potensialımızın münaqişənin həlli üçün əsas amil olduğunu, son illər ərzində öz hərbi qüdrətimizi böyük dərəcədə artırdığımızı bildirmişdir: **"Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Bu il ölkəmizdə iki dəfə keçirilmiş hərbi parad bizim gücümüzü, bizim güclü ordumuzun potensialını göstərir. Ən müasir silahlarla, texnika ilə təchiz edilmiş Azərbaycan Ordusu çox yüksək döyüş qabiliyyətinə malikdir və biz bu il bunu bir daha təsdiq etdik".**

Azərbaycanın bundan sonra da öz hərbi qüdrətini artıracağını bildirən Prezident İlham Əliyev bir daha vurğuladı ki, biz Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə həll etmək istəyirik və danışıqlarda iştirakımız bunun əyani sübutudur. Ancaq hər kəs bilir və bilməlidir ki, münaqişənin həlli üçün hərbi amil xüsusi rol oynayır və bundan sonra da biz hərbi qüdrətimizi artıracağıq.

Azərbaycan Prezidenti İlham Əliyevin dəfələrlə və birmənalı olaraq **"Azərbaycanın ərazi bütövlüyü danışıqların mövzusu ola bilməz"** fikrini irəli sürməsi ölkəmizin ərazi bütövlüyü təmin olunmaqla münaqişənin ədalətli şəkildə həll olunacağı ilə bağlı ümidləri daha da artırıb: **"Biz isə öz siyasətimizi davam etdirəcəyik. Danışıqlarda bizim prinsipial mövqeyimiz tam əsaslıdır və biz bu siyasətdən bir millimetr də geri çəkilən deyilik".**

Bu baxımdan, Azərbaycan Prezidenti İlham Əliyevin xarici siyasətində ərazi bütövlüyümüzün təmin edilməsi prioritet istiqamətdir. Dövlət başçısı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin yalnız beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi şərti ilə nizama salınmasının vacibliyini bildirmiş və beynəlxalq təşkilatların bu sahədə səylərini gücləndirməsinin zəruriliyini bəyan etmişdir. Prezident İlham Əliyev diqqətə çatdırmışdır ki, heç vaxt Azərbaycan xalqı və dövləti imkan verməyəcək ki, onun əzəli, tarixi, hüquqi torpağı ondan ayrılsın. Azərbaycanın ərazi bütövlüyü istənilən digər ölkənin ərazi bütövlüyü kimi eyni dəyərə malikdir. Azərbaycan bütün dünya tərəfindən tanınan öz ərazi bütövlüyünü bərpa edəcək.

# Azərbaycan Gimnastika Federasiyası bu il bir neçə nüfuzlu yarışa ev sahibliyi edəcək

Azərbaycan Gimnastika Federasiyası (AGF) 2019-cu ildə gimnastika növləri üzrə bir neçə irimiqyaslı yarışa ev sahibliyi edəcək.




AZƏRTAC xəbər verir ki, cari il federasiya yenidən zəngin iş planı ilə çalışaraq 2019-cu ilə fevralın 16-17-də batut gimnastikası üzrə dünya kuboku ilə start verəcək. Bir ay sonra - martın 14-17-də meydança idman gimnastlarının olacaq. Belə ki, ölkəmizdə dördüncü dəfə idman gimnastikası üzrə dünya kuboku təşkil olunacaq. Aprel və may ayları isə bədii gimnastların çıxışları ilə əlamətdar olacaq. Aprelin 26-28-də bu növ üzrə dünya kuboku, mayın 17-19-da isə Avropa çempionatı keçiriləcək.

Cari il AGF ilk dəfə olaraq, gimnastikanın iki növü üzrə Avropa çempionatına ev sahibliyi edəcək. Belə ki, bədii gimnastlardan sonra mayın 24-26-da qitənin ən güclü aerobika gimnastları paytaxtımızda toplaşacaqlar.

İyulun 20-28-də ölkəmizdə ilk dəfə olaraq, Avropa Gənclər Olimpiya Festivalı keçiriləcək. Bu festival çərçivəsində baş tutacaq idman gimnastikası üzrə yarışlar da məhz Milli Gimnastika Arenasında keçiriləcək.

İlin sonuncu yarışı bədii gimnastika üzrə dünya çempionatıdır. Bakı 14 ildən sonra yenidən dünya birinciliyinə ev sahibliyi edərək, ən güclülərin müəyyənləşdiyi mübarizənin şahidi olacaq.

Bakıda keçiriləcək hər üç dünya kuboku, eləcə də dünya çempionatının əsas özəlliklərindən biri isə məhz "Tokio 2020" Yay Olimpiya Oyunlarına lisenziya xarakteri daşıması olacaq.

Gimnastika növləri üzrə bütün beynəlxalq yarışların Milli Gimnastika Arenasında keçirilməsi gimnastika sevərləri daha da sevindirəcək. Belə ki, onlar sərfəli şərtlərlə "Mövsümi Bilet" əldə edərək bütün beynəlxalq gimnastika yarışlarını özlərinə məxsus oturacaqlardan izləyə biləcəklər.

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir


**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

KİVDF
www.kivdf.gov.az

## Azərbaycanın regionlarında yol infrastrukturunun yenidən qurulması və təkmilləşdirilməsi ilə bağlı irimiqyaslı layihələr uğurla icra olunur

*2018-ci ildə də bu istiqamətdə mühüm işlər görülüb, magistral yollarla yanaşı, qəsəbələrarası və kənd yolları da yenidən qurulub*







Müasir dövrdə dünyanın siyasi və iqtisadi mənzərəsi ziddiyyətlərlə səciyyələnir. Xüsusilə də, qlobal miqyasda baş verən iqtisadi kataklizmlər bir çox ölkələrin böhran kimi səciyyələndirilən mürəkkəb şəraitlə, tənəzzül və ciddi maliyyə problemləri ilə qarşı-qarşıya qalmasına səbəb olub. Ayrı-ayrı sahələrin strateji inkişaf planına və konseptual tərəqqi strategiyasına malik olan dövlətlər isə yeni iqtisadi perspektivlər formalaşdıra, inkişaf üçün əlverişli zəmin yarada biliblər. Bu mənada, Azərbaycan Respublikasının təcrübəsi də mütərəqqi nümunə kimi səciyyələndirilə bilər. Qeyd etmək lazımdır ki, Azərbaycan son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasətin nəticəsində böyük inkişaf yolu keçib. Bu hərtərəfli inkişaf bütün sahələri əhatə etməklə yanaşı, ölkəmizin iqtisadi gücünün artmasını təmin edib. Ümumiyyətlə, Azərbaycan iqtisadiyyatının inkişafı dinamik xarakter daşıyır, əldə edilən göstəricilər inkişafın davamlı olacağını əminliklə söyləməyə əsas verir. Bu məqamda qeyd etmək yerinə düşər ki, yola saldığımız 2018-ci il də Azərbaycan üçün olduqca uğurlu oldu, bütün sahələrdə ardıcıl islahatlar və məqsədyönlü tədbirlər müvəffəqiyyətlə davam etdirildi. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində bütün sahələrdə tarixi əhəmiyyətə malik olan möhtəşəm nailiyyətlər əldə olundu. Ötən il bir çox mühüm infrastruktur layihələrinin uğurla icra olunması, xüsusilə də nəqliyyat və neft-qaz sahələrində tarixi nailiyyətlərin altına imza atılması və bütövlükdə ardıcıl uğurların əldə olunması Azərbaycan Respublikasının qüdrətinin - milli gücünün daha da artmasını təmin etmiş oldu.

Təsadüfi deyil ki, nüfuzlu beynəlxalq reytinq agentlikləri də ölkəmizin sosial-iqtisadi inkişaf istiqamətində əldə etdiyi uğurları yüksək qiymətləndirirlər. Məsələn, Dünya Bankının "Doing Business 2019" hesabatında Azərbaycan ötən illə müqayisədə 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşıb, 10 ən islahatçı dövlət siyahısına daxil edilib. Bundan başqa, ötən il Dünya İqtisadi Forumunun Qlobal Rəqabətlilik Hesabatı da Azərbaycanın sosial-iqtisadi sahədə qazandığı nailiyyətləri əks etdirib. Tamamilə yeni metodologiya əsasında ictimaiyyətə təqdim edilmiş hesabatın 12 əsas sütun indikatorundan 7-si üzrə ölkəmizin mövqeləri əhəmiyyətli dərəcədə yaxşılaşıb, eyni zamanda, Azərbaycan Qlobal Rəqabətlilik Hesabatında dünyada sosial bərabərliyin ən yüksək səviyyədə təmin olunduğu ölkə kimi vurğulanıb. "Standard & Poor's" reytinq agentliyinin hesabatında Azərbaycan iqtisadiyyatının 2018-ci ildən 2021-ci ilə qədər olan dövr ərzində orta hesabla 3 faiz artacağına dair proqnoz ifadə olunub. "Moody's" beynəlxalq reytinq agentliyi isə 2019-cu ildə Azərbaycanda iqtisadi artım templərinin sürətlənəcəyini proqnozlaşdırıb. Bütövlükdə, beynəlxalq reytinq agentliklərinin və ayrı-ayrı təşkilatların hesabatlarında əks olunan məqamlar Azərbaycan iqtisadiyyatının dinamik inkişafının davamlı xarakter daşıdığını, həyata keçirilən çoxşaxəli islahatların pozitiv nəticələrini nümayiş etdirir.

Bu məqamda vurğulamaq lazımdır ki, ölkəmizdə infrastruktur quruculuğu da geniş vüsət alıb, bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilib, səmərəli nəticələr əldə olunub. Elə 2018-ci ildə də digər sahələrdə olduğu kimi, infrastruktur quruculuğu sahəsində də məqsədyönlü tədbirlər reallaşdırıldı, mühüm nəticələr əldə olundu. Bu baxımdan, yol infrastrukturunun yenidən qurulması və təkmilləşdirilməsi ilə bağlı irimiqyaslı layihələrin uğurla icra olunmasını xüsusi olaraq qeyd etmək yerinə düşər. Eyni zamanda il ərzində bölgələrdə də avtomobil yollarının yenidən qurulması və tikintisi istiqamətində görülən işlər davamlı xarakter daşıyıb. Yol infrastrukturunun yenilənməsi ilə bağlı görülən işlər həm ölkə əhəmiyyətli yolları, həm də kənd yollarını əhatə edir. Daha dəqiq desək, ölkəmizdə 2018-ci ildə bu istiqamətdə mühüm işlər görülüb, magistral yollarla yanaşı, qəsəbələrarası və kənd yolları yenidən qurulub. Yola saldığımız 2018-ci ilin son aylarında da bu istiqamətdə işlər uğurla davam etdirilib, dövlət başçısı tərəfindən müvafiq sərəncamlar imzalanıb.

Yeri gəlmişkən, Prezident İlham Əliyev ötən il noyabrın 28-də "Yardımlı rayonunun Yardımlı-Bozayran-Bürzünbül-Vərgədüz-Sırıq avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb. Həmin Sərəncama əsasən iyirmi min nəfər əhalinin yaşadığı 15 yaşayış məntəqəsini birləşdirən Yardımlı-Bozayran-Bürzünbül-Vərgədüz-Sırıq avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 9 milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb. Bununla yanaşı, dövlətimizin başçısının noyabrın 29-da imzaladığı "Zaqatala rayonunun Zaqatala-Aşağı Tala-Üçüncü Tala-Dağlı-Muğanlı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında" Sərəncama əsasən on yeddi min nəfər əhalinin yaşadığı 12 yaşayış məntəqəsini birləşdirən Zaqatala-Aşağı Tala-Üçüncü Tala-Dağlı-Muğanlı avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 11 milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb. Prezident İlham Əliyev 2018-ci il dekabrın 13-də isə "Neftçala rayonunun Neftçala-Xol Qaraqaşlı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb. Qırx dörd min nəfər əhalinin yaşadığı 19 yaşayış məntəqəsini birləşdirən Neftçala-Xol Qaraqaşlı avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 18,2 milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb. Bundan başqa, dövlətimizin başçısı dekabrın 14-də "Kürdəmir rayonunun Karrar-Bağman-Böyük Kəngərli avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb. Sözügedən Sərəncama əsasən altı min nəfər əhalinin yaşadığı 7 yaşayış məntəqəsini birləşdirən Karrar-Bağman-Böyük Kəngərli avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin ilkin olaraq 2,82 milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb. Dövlət başçısı nəinki müvafiq sərəncamlar imzalayır, həm də yeni istifadəyə verilən avtomobil yollarının açılışında da iştirak edir. Belə ki, dekabrın 28-də Böyükşor gölünün üzərində inşa edilən və paytaxtın Ziya Bünyadov prospekti ilə Balaxanı-Binəqədi avtomobil yolunu birləşdirən ümumşəhər əhəmiyyətli yeni avtomobil yolunun açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına layihənin texniki göstəriciləri barədə məlumat verib. Bildirilib ki, Ziya Bünyadov prospekti ilə Balaxanı-Binəqədi avtomobil yolunu birləşdirən, paytaxtın nəqliyyat sistemində mühüm əhəmiyyətə malik yeni yolun tikintisi 2017-ci ilin yanvarında və ötən ilin mayında Prezident İlham Əliyevin imzaladığı sərəncamlara əsasən həyata keçirilib. Uzunluğu 2,7 kilometr olan yolun tikintisi yüksək keyfiyyətlə və sürətlə aparılaraq yekunlaşdırılıb. Yeni yol Böyükşor gölünün iki hissəyə bölünməsi məqsədilə çəkilən 1570 metr uzunluğundakı bəndin üzərindən keçir. Yeni yol dörd hərəkət zolaqlı olmaqla birinci texniki dərəcəyə uyğun inşa edilib. Yolboyu 16 yol nişanı quraşdırılıb. Yolun əvvəlində və sonunda uzunluqları 320 və 274 metr olan iki tunel də inşa edilib. Tunellərin hərəkət hissəsinin eni 28 metrdir. Tikinti işləri çərçivəsində yeni yolun giriş və çıxış hissələrində qovşaqlar da tikilib. Yol boyunca müasir işıqlandırma sistemi qurulub, dörd avtobus dayanacağı quraşdırılıb. Qeyd edək ki, yeni avtomobil yolunun inşası nəticəsində sürücülər həm Xırdalan-Binəqədi-Balaxanı avtomobil yoluna, həm də Ziya Bünyadov prospektinə rahat çıxış əldə edəcəklər. Belə ki, avtonəqliyyat vasitələri "20 Yanvar" dairəsindən istifadə etmədən Xırdalan-Binəqədi-Balaxanı avtomobil yolu ilə Xırdalan dairəsi ərazisindən Xırdalan, Masazır qəsəbələrinə, həmçinin Sumqayıt şəhərinə və bu istiqamətdə yerləşən digər qəsəbələrə, bundan başqa, Binəqədi, Mehdiabad, Digah, Fatmayı, Göradil, Pirşağı qəsəbələrinə rahat hərəkət edəcək. Xırdalan-Binəqədi-Balaxanı avtomobil yolundan Zabrat-Maştağa avtomobil yoluna çıxmaqla isə bu istiqamətdə yerləşən qəsəbələrə rahat gediş-gəliş təmin olunacaq. Bundan başqa, həmin qəsəbələrin sakinlərinə Ziya Bünyadov prospektinə çıxmaqla şəhər mərkəzinə rahat və qısa yolla hərəkət etmək imkanı yaranacaq. Bununla da həm məsafə qısalacaq, həm vaxt itkisi azalacaq, xüsusilə də günün pik saatlarında istər Ziya Bünyadov prospektində, istərsə də Heydər Əliyev prospektinin metronun "Koroğlu" stansiyasının qarşısından keçən hissəsində müşahidə olunan nəqliyyat sıxlığı aradan qaldırılacaq.

(davamı növbəti sayımızda)

**Nurlan QƏLƏNDƏRLİ**

## Zaqatala Bölgə Təcrübə Stansiyası fermerləri keyfiyyətli toxumla təmin edir

*Kənd Təsərrüfatı Nazirliyi ilə AZƏRTAC-ın birgə layihəsi: "Kəndbəkənd"*








Kənd təsərrüfatının strateji əhəmiyyətli istehsal sahələrindən olan toxumçuluğun inkişaf etdirilməsi, məhsul istehsalçılarının keyfiyyətli toxuma tələbatının daxili istehsal hesabına təmin olunması prioritet vəzifələrdən biri kimi müəyyən edilib və bu istiqamətdə Kənd Təsərrüfatı Nazirliyi tərəfindən zəruri tədbirlər həyata keçirilir.

Nazirliyin Elmi-Tədqiqat Əkinçilik İnstitutunun elmi-tədqiqat müəssisəsi olan Zaqatala Bölgə Təcrübə Stansiyası uzun illərdir ki, dənli və texniki bitkilərdən seçmə yolu ilə daha keyfiyyətli sort və hibridlərinin alınması, yüksək reproduksiyalı toxumların əldə edilməsi və bu sortların özəl fermer təsərrüfatlarına tövsiyə olunması istiqamətində elmi-tədqiqat işləri aparır. 1924-cü ildə Zaqatala tütün dayaq stansiyasının bazasında yaradılan müəssisə 1950-ci ildən Elmi-Tədqiqat Əkinçilik İnstitutunun tabeçiliyinə verilib.

### BİTKİÇİLİKDƏ MƏHSULDARLIQ KEYFİYYƏTLİ TOXUMDAN ÇOX ASILIDIR

AZƏRTAC-ın bölgə müxbiri Zaqatala Bölgə Təcrübə Stansiyasının direktoru Nəbi Kərimovla görüşüb, müəssisədə toxumçuluğun inkişafı ilə bağlı görülən işlərlə tanış olub, nəzərdə tutulan tədbirlər barədə maraqlanıb.

Müsahibimiz bildirib ki, stansiyanın əsas təsərrüfat fəaliyyəti dənli taxıl bitkilərinin ilkin toxumçuluğunun təşkili, yüksək reproduksiyalı super elit və elit toxumların artırılması, eyni zamanda, yeni sortların yaradılması və toxumçuluq təsərrüfatlarına tövsiyə edilməsindən ibarətdir. Stansiya, həmçinin Elmi-Tədqiqat Əkinçilik İnstitutu tərəfindən göndərilən yeni buğda və arpa sortları üzərində də elmi-tədqiqat işləri apararaq sınaqdan keçirir, gələcəkdə Şəki-Zaqatala bölgəsində rayonlaşdırılması məqsədəuyğun olan taxıl sortlarının ilkin toxumçuluğu ilə məşğul olur. Rayonlaşdırılmış qarğıdalı sortları respublikada yalnız Zaqatala Bölgə Təcrübə Stansiyasında yetişdirilir.

### STANSİYADA QURAŞDIRILAN TOXUMTƏMİZLƏMƏ QURĞUSUNDAN FERMERLƏR DƏ FAYDALANIRLAR

Stansiya direktorunun sözlərinə görə, 2018-ci ildə müəssisədə ildə 200 tonadək toxum istehsal etmək gücünə malik toxumtəmizləmə qurğusu quraşdırılıb. Bu qurğunun köməyi ilə taxıl toxumlarının təmizlənməsi, dərmanlanması və qablaşdırılması həyata keçirilir. Ötən il müəssisədə 93,1 ton super elit və elit buğda, 24 ton arpa toxumu istehsal edilərək Kənd Təsərrüfatı Nazirliyinin bölgüsü əsasında taxılçılıqla məşğul olan rayonların toxumçuluq təsərrüfatına verilib. Eyni zamanda, keçən il müəssisədə 32 ton yüksək reproduksiyalı qarğıdalı toxumu da istehsal edilib. Stansiyada quraşdırılan toxumtəmizləmə qurğusundan yerli fermerlər də faydalanıb. Rayonda fəaliyyət göstərən "Muxax" İstehsal Kooperativi ötən il stansiyada 40 ton toxum təmizlədib.

### STANSİYADA YENİ MƏHSULDAR, XƏSTƏLİKLƏRƏ DAVAMLI TÜTÜN SORTLARININ YARADILMASI İSTİQAMƏTİNDƏ İŞ APARILIR

Nəbi Kərimov bildirib ki, hazırda Bölgə Təcrübə Stansiyasında 2 şöbə - Bitki seleksiyası və toxumçuluğu və Əkinçilik və bitki diversifikasiyası şöbələri fəaliyyət göstərir. Birinci şöbədə Azərbaycanın müxtəlif aqroekoloji bölgələrində biotok və ekstremal amillərə davamlı yüksək yaşıl kütlə və dən məhsulu verən qarğıdalı sort və hibridlərinin yaradılması, qruplaşdırılması, fermer təsərrüfatlarında tətbiqi, Şəki-Zaqatala bölgəsində tezyetişən qarğıdalı sort və hibridlərinin seleksiyası istiqamətində elmi-tədqiqat işləri həyata keçirilir.

Əkinçilik və bitki diversifikasiyası şöbəsində aparılan elmi-tədqiqat işləri isə Şəki-Zaqatala bölgəsinin torpaq-iqlim şəraitinə uyğun yeni məhsuldar, keyfiyyətli, xəstəlik və zərərvericilərə davamlı tütün sortlarının yaradılması sahəsini əhatə edir.

Müəssisə rəhbərinin məlumatına görə, aparılan təcrübə onu göstərir ki, Zaqatalada istehsal olunan yerli tütün sortlarının məhsuldarlığı xaricdən gətirilən sortlardan iki dəfə çoxdur. Lakin Amerika və Avropadan gətirilən tütün sortları, o cümlədən "Virciniya" növlü ətirli tütün keyfiyyətinə görə daha qiymətli hesab olunur. Belə tütünə tələbat da çoxdur. Ətirli tütünün qurudulması daha asan və əlverişlidir. Sahələrdən dərilən tütün birbaşa emal məntəqəsinə gətirilir və qurutma kameralarına qoyulur. Yerli tütün sortları isə əl əməyindən istifadə edilməklə, ipə düzülərək açıq havada qurudulur. Hazırda stansiyada yerli şəraitə uyğunlaşdırılmış məhsuldar və qiymətli tütün sortlarının yaradılması istiqamətində iş davam etdirilir.

### BU İL BÖLGƏ TƏCRÜBƏ STANSİYASINDA SINAQ ÜÇÜN İLK DƏFƏ QARABAŞAQ BİTKİSİ ƏKİLƏCƏK

Builki təsərrüfat ili üçün nəzərdə tutulan planlar barədə danışan Nəbi Kərimov deyib ki, cari ilin məhsulu üçün 70 hektarı buğda, 20 hektarı arpa olmaqla, 90 hektara taxıl səpilib. Martın axırı - aprelin əvvəllərində 40 hektarda qarğıdalı əkiləcək. Cari ilin yazında Zaqatalada sınaq üçün 3 hektar qarabaşaq əkilməsi də nəzərdə tutulur. Əkin üçün lazım olan toxum Türkiyədən gətiriləcək. Nəticə uğurlu olarsa, gələcəkdə qarabaşağın əkin sahəsi daha da genişləndiriləcək.

## Azercell-dən "Milyon, milyon nömrələr" kampaniyası

*Artıq bəyəndiyiniz nömrəni əldə etmək daha asan olacaq*

Telekommunikasiya və yeni həllər vasitəsilə insan həyatını asanlaşdırmağı, ən son texnologiyaları istifadəçiləri üçün əlçatan etməyi hədəfləyən "Azercell Telekom" MMC yeni kampaniya təqdim edir.

Şirkət "Milyon, milyon nömrələr" kampaniyası çərçivəsində pərakəndə nömrə satışlarına başlayır. Təqdim olunan yeni kampaniya mövcud və potensial müştərilərə www.mysim.az veb-saytına daxil olmaqla bəyəndiyi nömrəni əldə etmək imkanı verir. Belə ki, müştəri onu maraqlandıran nömrəni axtarış xanasına daxil edir, sistem isə öz növbəsində nömrənin satışda olub-olmadığını müəyyənləşdirir. Axtarış müsbət nəticə verdiyi halda, abunəçiyə həmin nömrənin əldə edilməsi üçün istənilən Azercell rəsmi satış məntəqəsinə müraciət etməsi tövsiyyə edilir.

Azercell-in təqdim etdiyi sözügedən kampaniya çərçivəsində sayt vasitəsilə satış müştərilərin rahatlığını təmin edir, nömrə almaq istəyənlərə daha çox seçim imkanı və sərfəli qiymət təqdim edir. Abunəçi ev və ya ofisi tərk etmədən, almaq istədiyi nömrə kombinasiyasının və ya oxşar nömrə variantlarının mövcudluğu haqqında məlumatı rahatlıqla əldə edir və ona ən yaxın Azercell rəsmi satış məntəqəsindən müvafiq nömrəni əldə edir.




Ölkənin lider operatoru olan Azercell bundan sonra da müştərilərini unikal xidmətlər və sərfəli kampaniyalarla sevindirməyə davam edəcək.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
Baş redaktor:
Hikmət BABAOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 6074

"Kapital Bank"ın Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

İnformasiya mənbələrimiz:
"AZƏRTAC",
"Azadinform", "SİA"

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.

Buraxılışa məsul:
Zahid İLHAMOĞLU